QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 220 (6184) 9 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Prezident İlham Əliyev Azərbaycan Ordusuna Yardım Fondunun yaradılması haqqında Fərman imzalayıb



Bax 2

## Mehriban Əliyeva: "Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır"



Bax 2

Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır. AZƏRTAC xəbər verir ki, bu barədə...

## Ərdoğan Azərbaycana səfər edəcək



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 10-da Bakıda keçiriləcək Vətən müharibəsində qələbəyə həsr olunmuş hərbi paradda iştirak etmək üçün sabah Azərbaycana səfər edəcək. Bu barədə "Anadolu" agentliyinə məlumat...

Bax 3

## Hikmət Hacıyev: "Sərt karantin rejiminin tətbiqində məqsəd Azərbaycan vətəndaşlarının salamlığının qorunmasıdır"



Sərt karantin rejiminin tətbiq edilməsi ilə bağlı cəmiyyətdən də tələblər var. AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Nazirlər Kabineti yanında Operativ Qərargahın dekabrın...

Bax 3

## Hikmət Babaoğlu: "YAŞAT" Fondunun yaradılması cəmiyyətimizdə yardımlaşma ruhunun möhkəmlənməsinə töhfə verəcək



Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fondunun yaradılması, sadəcə, belə ailələrin sosial...

Bax 3

## Sergey Markov: "İlham Əliyev informasiya müharibəsində də Nikol Paşinyanı məğlub etdi"

Bax 6



Rusiyanın nüfuzlu ictimai xadimi, politoloq, Siyasi Araşdırmalar İnstitutunun baş direktoru, Dövlət Dumasının 5-ci çağırış deputatı Sergey Markov TASS platformasında Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ uğrunda informasiya müharibəsi haqqında aparılan müzakirənin tezislərini qəbul etdiyini bildirib. Politoloq yazıb: Mənim məntiqimə görə bu kimi tezislərlə demək olar ki, razılaşmaq olar.
1. Ermənistan təkcə ərazi uğrundakı müharibəni deyil...

### Dekabrın 14-dən yanvarın 18-dək bütün ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq ediləcək



Bax 3

### Erməni cəmiyyətində qaranlıqlar



Bax 14

### "YAŞAT" Fondu Prezidentin başəri məqsədlərinin təzahürüdür"



Bax 5

# Prezident İlham Əliyev Azərbaycan Ordusuna Yardım Fondunun yaradılması haqqında Fərman imzalayıb



***Dekabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Ordusuna Yardım Fondunun yaradılması və "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə yardım Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanının ləğv edilməsi barədə Fərman imzalayıb. AZƏRTAC xəbər verir ki, Fərmana əsasən, Azərbaycan Ordusuna Yardım Fondu yaradılıb və Fondun Əsasnaməsi təsdiq edilib.***

Bundan başqa, "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə yardım Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ləğv olunub.

Fərmanda Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fondu ləğv olunduğu gündən onun balansında qalan vəsaitin Azərbaycan Ordusuna Yardım Fondunun xüsusi xəzinə hesabına köçürülməsini təmin etmək tapşırılıb. Bu Fərmanla təsdiqlənən Əsasnamədə qeyd olunub ki, Əsasnamə Azərbaycan Ordusuna Yardım Fondunun vəsaitinin formalaşdırılması, idarə edilməsi və həmin vəsaitdən istifadə ilə bağlı münasibətləri tənzimləyir.

Fondun məqsədi Azərbaycan Ordusunun müasir tələblərə uyğun inkişafını təmin etməkdən, onun maddi-texniki bazasını möhkəmləndirməkdən və hərbi qulluqçuların sosial müdafiəsini daha da gücləndirməkdən ibarətdir.

Fondun vəsaitinin sərəncamçısı Azərbaycan Respublikasının Müdafiə Nazirliyidir. Fondun vəsaiti fiziki və hüquqi şəxslərin könüllü ianələri və qanunla qadağan olunmayan digər mənbələr hesabına Azərbaycan manatı və xarici valyutalar ilə formalaşdırılır.

Fondun vəsaitindən Azərbaycan Ordusunun maddi-texniki bazasının inkişaf etdirilməsi, hərbi texnika, silah və sursatın alınması, hərbi təyinatlı məmulatların hazırlanması, sınaqdan keçirilməsi, istehsalı, təmiri və modernləşdirilməsi, hərbi elmi tədqiqat və təcrübə-konstruktor işlərinin aparılmasının təşkili, hərbi qulluqçuların sosial və məişət problemlərinin həll edilməsi, peşəkar hərbi kadrların hazırlanması və onların əlavə təhsili üçün istifadə edilir. Fondun vəsaitindən bu Əsasnamədə nəzərdə tutulmayan məqsədlər üçün istifadə edilə bilməz.

Fondun vəsaitinin toplanması və ondan təyinatı üzrə istifadə olunması məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinin xüsusi xəzinə hesabı açılır. Dövlət Xəzinədarlıq Agentliyi isə Azərbaycan manatı ilə və xarici valyutalarda kredit təşkilatlarında bank hesabları açır. Fondun vəsaitindən istifadə edilməsi Azərbaycan Respublikası Prezidentinin razılığı əsasında həyata keçirilir.

Müdafiə Nazirliyinin Fondun vəsaitindən bu Əsasnamənin 3-cü hissəsi ilə müəyyən edilmiş xərc istiqamətlərinə uyğun istifadə edilməsi üzrə təklifi (vəsatəti) razılıq verilmək üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir və həmin vəsatətə razılıq verildiyi təqdirdə Fonddan vəsaitin ayrılması Azərbaycan Respublikası müdafiə nazirinin əmri ilə rəsmiləşdirilir.

Dövlət Xəzinədarlıq Agentliyi Müdafiə Nazirliyinin əmri və ödənişlər üzrə sifarişləri əsasında maliyyələşməni həyata keçirir. Müdafiə Nazirliyi Fondun vəsaiti hesabına satınalmaları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun həyata keçirir.

Əsasnamədə, həmçinin vurğulanıb ki, Dövlət Xəzinədarlıq Agentliyi Fondun vəsaitindən istifadəyə və Fondun hesablarında qalan xərclənməmiş vəsaitə dair hesabatları ayda bir dəfə Müdafiə Nazirliyinə təqdim edir. Müdafiə Nazirliyi Fondun vəsaitindən istifadəyə dair yarımillik və illik hesabatları Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

# Mehriban Əliyeva: "Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır"

***Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsindəki paylaşımında bildirilir. Paylaşımda deyilir:***



"Əziz həmvətənlər!

Bu günlər biz hamımız Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının qürurunu və sevincini yaşayırıq. 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində azad edilmişdir.

Əlbəttə, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik. Erməni təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşdur. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsər-əlamət qalmamışdır.

Amma əminliklə bildirmək istəyirəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün Qarabağ bölgəsini Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik. Burada yenidən həyat canlanacaq, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarında yaşayıb, yaradacaqlar.

Əziz həmvətənlər,

Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır. Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN"

# Hikmət Hacıyev: "Sərt karantin rejiminin tətbiqində məqsəd Azərbaycan vətəndaşlarının salamlığının qorunmasıdır"

***Sərt karantin rejiminin tətbiq edilməsi ilə bağlı cəmiyyətdən də tələblər var. AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Nazirlər Kabineti yanında Operativ Qərargahın dekabrın 8-də keçirilən brifinqdə deyib.***




Prezidentin köməkçisi qeyd edib ki, son günlər Azərbaycanda koronavirusa yoluxanların sayı kifayət qədər ciddi rəqəmlərlə ölçülür və bu da böyük narahatlıq doğurur. Hikmət Hacıyev bildirib ki, sərt karantin rejiminin tətbiqində məqsəd Azərbaycan vətəndaşlarının salamlığının qorunması, ölüm hallarının qarşısının alınmasıdır. Kütləvi vaksinlər tətbiq edilənə qədər vətəndaşlarımızın sağlamlığını qorumalıyıq.

H. Hacıyev daha sonra qeyd edib ki, Koronavirusun dünyada, qonşu ölkələrdə artma tendensiyası nəzərə alınaraq Azərbaycanda da bu sahədə qaydaların sərtləşdirilməsi barədə qərar qəbul edilib.

Prezidentin köməkçisi bildirib ki, peyvəndin tətbiqinə qədər yoluxmanın azaldılması istiqamətində tədbirlər həyata keçirilməlidir. Sentyabrın 27-dən - Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən bəri səhiyyə sistemimiz iki cəbhədə fəaliyyət göstərir. Hazırda 900-dən çox əsgər və zabitimizin tibbi müəssisələrdə müalicəsi davam etdirilir, digər tərəfdən də həkimlərimiz koronaviruslu xəstələrin müalicəsi ilə məşğuldurlar.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Ordusuna Yardım Fondunun yaradılması və "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə yardım Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanının ləğv edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) Himayəçilik Şurasının tərkibinin təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Namiq Rəsul oğlu Zeynalovun Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə Fərman imzalayıb.

# "The Washıngton Times": Azərbaycanda bütün xristian məbədləri bərpa edilib

***"The Washıngton Times" qəzetində Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin "Azərbaycanda bütün xristian məbədləri bərpa edilib" sərlövhəli məqaləsi dərc olunub. AZƏRTAC xəbər verir ki, müəllifin sözlərinə görə, altı həftəlik müharibə başa çatandan sonra Azərbaycan ərazilərini otuz ilə yaxın müddətdə işğal altında saxlamış Ermənistan silahlı qüvvələri öz ölkələrinə qayıdıblar.***




İndi barışmaq və dağıdılanları bərpa etmək vaxtıdır, lakin bəzi beynəlxalq KİV-lər əsassız olaraq belə ittihamlar irəli sürürlər ki, guya Azərbaycan bu ölkədəki xristian abidələrinə və xristian irsinə qarşı "mədəni soyqırım" törətməyi planlaşdırır. Belə iddiaları "sübut etmək" üçün dini abidələrin sovet dövründə dağıdılmasına əsaslanan fərziyyələr irəli sürülür. Keçmiş SSRİ-nin bütün ərazisində dini binalar dağıdılırdı. Bütün sovet məkanında dini abidələrin bilərəkdən dağıdılması dövlət siyasətinin tərkib hissəsi olub. Stalin rejimi dövründə Moskvada pravoslav kilsələri, Azərbaycanın paytaxtı Bakıdakı Aleksandr Nevski kilsəsi sökülüb, 25 mindən çox məscid dağıdılıb.

Müasir Azərbaycanda bunun tam əksi olan siyasət həyata keçirilir. 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan çoxkonfessiyalı irsin bərpa edilməsinə tərəfdar olduğunu bütün dünyaya nümayiş etdirib. Bakıdakı erməni kilsəsi 1990-cı ildə hərc-mərclik dövründə zədələnəndən sonra tam bərpa olunub. Hikmət Hacıyev vurğulayır ki, hazırda bu kilsədə yerləşən kitabxanada beş minə yaxın qiymətli erməni əlyazması saxlanılır. Bir neçə il bundan əvvəl Erməni Kilsəsinin başçısı Bakıdakı kilsənin fəxri qonağı olub. Azərbaycan hökuməti tərəfindən Bakıda ayrılmış ərazidə yeni katolik kilsəsi tikilib, bu kilsənin açılışında Roma Papası şəxsən iştirak edib. Köhnə sinaqoqlar bərpa edilib, yeniləri açılıb, yeni yəhudi məktəbləri tikilib.

Azərbaycan hökuməti respublika hüdudlarından kənarda - Vatikan katakombaları, Fransada roman kilsələri, Strasburq kilsəsinin vitrajları kimi dini abidələrin bərpası layihələrinə maliyyə yardımı göstərib. Ona görə də dünya Azərbaycan rəhbərliyinə inana bilər və inanmalıdır, çünki ölkə rəhbərliyi bizim bu sözlərimizi öz əməli fəaliyyəti ilə təsdiq edir. Azərbaycan rəhbərliyi açıq elan edib ki, işğal nəticəsində dağıdılmış Qarabağ regionunda xristian və müsəlman irsini bərpa edəcək. UNESCO-nun da həmin layihədə iştirak edəcəyini bildirməsi alqışa layiqdir.

Prezidentin köməkçisi daha sonra yazır ki, Azərbaycan tərəfi 1990-cı illərin əvvəlində 700 minə yaxın azərbaycanlının qovulduğu ərazilərdə ermənilər tərəfindən dağıntılar törədilməsini bilirdi. Dağıdılmış evlərin və dini binaların şəkillərini "Google" axtarış sisteminin xəritələrində görmək olardı. İndi isə bütün bunları əyani şəkildə görmək mümkündür. İşğal nəticəsində 700-dən çox tarix və mədəniyyət abidəsi, 927 kitabxana, 808 mədəniyyət mərkəzi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən çox artefaktın saxlandığı 22 muzey, 4 rəsm qalereyası, 4 teatr, 2 konsert zalı zədələnib və ya məhv edilib. Ermənistanın bu dağıdıcı siyasəti hələ də davam edir: BBC teleşirkətinin noyabr ayında nümayiş etdirdiyi kadrlarda işğal altında olan əraziləri üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq tərk edən ermənilər tərəfindən "azərbaycanlıların oraya gələ bilməmələri üçün" evlərin yandırılması aşkar görünür. Hikmət Hacıyev yazır: "Biz hesab edirik ki, Azərbaycanın müxtəlif mədəniyyətlərə və dinlərə həssas münasibəti ibrət götürülməli nümunədir. Bu gün bizim ölkədə azərbaycanlılarla birgə yaşayan minlərlə yəhudi və xristian müsəlman qonşuları ilə birlikdə öz dininə açıq etiqad edir, öz mədəniyyətini təbliğ edir. 2016-cı ildə Papa Fransisk Bakıda səfərdə olarkən müsəlman, yəhudi və xristian dini liderləri ilə görüşdə xüsusi qeyd edib ki, bu ölkədə "dinlərin qarşılıqlı münasibətləri və xoş niyyətləri əsasında harmoniya qurula bilməsi" təqdirəlayiqdir. Biz bəzi şəxslərin uydurma ittihamlarını qəbul edə bilmərik ki, guya Azərbaycan xristian irsinə qarşı təhlükə mənbəyidir. Azərbaycanı işğaldan bu yaxınlarda azad edilmiş ərazilərdə xristian irsinə təhdid yaratmaqda ittiham edənlər nəzərə almalıdırlar ki, Azərbaycan ölkənin qalan ərazisində dini binaları bərpa edib və dini etiqad mərasimlərini təşviq edib".

# Hikmət Babaoğlu: "YAŞAT" Fondunun yaradılması cəmiyyətimizdə yardımlaşma ruhunun möhkəmlənməsinə töhfə verəcək

***Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fondunun yaradılması, sadəcə, belə ailələrin sosial problemlərinin həll edilməsinə deyil, həm də cəmiyyətimizdə yardımlaşma ruhunun möhkəmlənməsinə töhfə verəcək.***



Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib. H.Babaoğlu bildirib ki, Azərbaycanda şəhid və qazi ailələrinə dövlət tərəfindən hər cür yardım edilir: "Təbii ki, dövlətimizin sosial siyasətinin mərkəzində duran ən əsas məsələlərdən biri də məhz bu istiqamətdə fəaliyyətin yüksək səviyyədə təşkil olunmasıdır. Şəhid ailələrinə və müharibə veteranlarına birdəfəlik yardım da daxil olmaqla, çoxsaylı güzəştlərin tətbiq olunması, onların mənzil və avtomobillərlə təmin edilməsi, aylıq müavinət və təqaüdlərin verilməsi, vergi güzəştlərinin nəzərdə tutulması və digər kimi bu qəbildən olan sosial güzəştlər yalnız təminatın kiçik bir qismidir.

Deputatın sözlərinə görə, işverənlərlə bu statusda olan vətəndaşlarımız üçün məcburi kvotanın müəyyən edilməsi, özünüməşğulluqla bağlı çoxsaylı layihələrin həyata keçirilməsi və maliyyələşdirilməsi də güzəştli ailələrimiz üçün nəzərdə tutulan digər kateqoriyaya aid fəaliyyət növüdür. Ancaq bütün bunlarla yanaşı, ayrı -ayrı vətəndaşlarımızın da şəhid və qazilərimizin ailələrinə bu və ya digər formada yardım etmək istəyinin kütləvi olması həmin sahədə bir koordinasiya fəaliyyətini zəruri edir ki, yeni yaradılan "YAŞAT" fondu da məhz bu funksiyanı yerinə yetirəcək.

"Bizim ən yaxşı milli xüsusiyyətlərimizdən biri də qarşılıqlı yardımlaşma və bunun üçün cəmiyyətin səfərbər olma əzmini göstərə bilməsidir", - deyən Hikmət Babaoğlu vurğulayıb ki, bu gün əldə etdiyimiz tarixi zəfərdən sonra bütün vətəndaşlarımız bu prosesə müəyyən töhfə verməklə iştirakçı olmağa çalışır. Belə əhval-ruhiyyə ictimai həmrəyliyi artırmaqla, həm də milli birliyimizi gücləndirir. Nəticə etibarilə hər bir fərd özünü tarixi qələbəmizin, torpaqlarımızın işğaldan azad olunmasının bir növ iştirakçısına çevrilə bilmə arzusunu realizə etmiş hesab edir ki, bu da ictimai vicdanı rahatladan mühüm mənəvi komponentin qismində çıxış edir. Beləliklə, biz xalq olaraq ümumi işimizə birgə töhfə verməklə bərabər, kütləvi sinxron hərəkətin iştirakçısı olur və milli-mənəvi bağlarımızı möhkəmləndiririk. Bu, çox mühüm hadisədir və gələcək inkişafımız, birlik və bərabərliyimiz üçün çox vacibdir.

## "YAŞAT" Fondunun vəsaiti necə formalaşır və hansı istiqamətlərdə xərclənir?



Prezident İlham Əliyevin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə QAYDASI" təsdiqlənib. AZƏRTAC xəbər verir ki, sənədə əsasən, Fondun vəsaiti fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində etdiyi yardımlar (ianələr) və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır. Yardımlar Fondun rəsmi internet səhifəsi və elektron ödəniş sistemləri üzərindən, habelə Fondun qısa nömrəsinə SMS göndərməklə, yaxud bank köçürməsi və ödəmə terminalları vasitəsilə edilir.

"YAŞAT" Fondunun vəsaitindən şəhid ailəsi statusu alan və ya əlilliyi müəyyən edilənədək götürülən istehlak kreditlərinin və digər borc öhdəliklərinin qarşılanması, müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi, təhsil və yaradıcı potensialının inkişafına kömək edilməsi ilə bağlı xərclərin ödənilməsi, məişət şəraitinin yaxşılaşdırılması istiqamətlərində istifadə olunur. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti Azərbaycan Respublikası Prezidentinin yaratdığı Himayəçilik Şurası həyata keçirir. Fond tərəfindən şəxsə əlavə dəstək onun müraciəti əsasında göstərilir.

## Dekabrın 14-dən yanvarın 18-dək bütün ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq ediləcək

2020-ci il dekabrın 14-də saat 00:00-dan 2021-ci il yanvarın 18-i saat 00:00-dək bütün ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq ediləcək. Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən həmin müddətdə ölkənin bütün ərazisində müəyyən edilmiş iş və xidmət sahələri istisna olmaqla digər sahələrdə iş və xidmətlər dayandırılır. Bütün ticarət obyektlərinə, ictimai iaşə obyektlərinə, o cümlədən restoran, kafe və çay evlərinə müştərilərə yalnız çatdırma xidmətlərinin göstərilməsi və ya onlayn satışa icazə verilir.



Operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin hərəkəti istisna olmaqla, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisinə, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzlərinə (kənd və qəsəbələr istisna olmaqla) giriş-çıxış dayandırılır.

Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisində, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzlərində (kənd və qəsəbələr istisna olmaqla) hərəkət məhdudiyyəti tətbiq edilir. Nazirlər Kabinetinin qərarı əsasında müəyyən edilən siyahı üzrə müvafiq qurumlarda çalışan şəxslər xidməti vəsiqə əsasında, eyni zamanda qərarla müəyyən edilmiş digər təşkilatların və qurumların işçiləri onlar barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yuxarıda qeyd olunan ərazilərdə hərəkət edə bilərlər.

## Ərdoğan Azərbaycana səfər edəcək



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 10-da Bakıda keçiriləcək Vətən müharibəsində qələbəyə həsr olunmuş hərbi paradda iştirak etmək üçün sabah Azərbaycana səfər edəcək. Bu barədə "Anadolu" agentliyinə məlumat yayılıb. Məlumata görə, səfər Azərbaycan Prezidenti İlham Əliyevin dəvəti əsasında baş tutacaq. Səfər zamanı Azərbaycanın haqlı mübarizəsinin beynəlxalq platformalarda dəstəklənməsi ilə bağlı birgə addımlar, iki qardaş ölkə arasında mövcud əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olunacaq. Səfər çərçivəsində həmçinin aktual beynəlxalq və regional məsələlər barəsində fikir mübadiləsi aparılacaq. Eyni zamanda, ikitərəfli əlaqələrə dair müxtəlif anlaşma və memorandumların imzalanması da planlaşdırılır.

# Azərbaycan beynəlxalq münasibətlərdə etibarlı ölkədir

*Prezident İlham Əliyev: “Bu səfərlər ikitərəfli əlaqələrimizin çox möhkəm zəmində olmasını göstərir”*



**Azərbaycan 27 sentyabrdan sonra da bir çox mötəbər qurumlarla əməkdaşlığını genişləndirib, nüfuzunu artırıb. Bu gün torpaqlarını 30 illik əsarətdən qurtaran Azərbaycan Böyük Qələbəyə 8 noyabrda nail oldu, “Qarabağ Azərbaycandır və NİDA” deyimini təsdiq etdi. Əlbəttə, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiqdir, güclü orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır, həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti təqdir olunur. Azərbaycanın mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməklə bu sahədə geniş təcrübəyə malik bir dövlətdir.**

Dekabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi deyilənlərin göstəricisidir.

## “Bu səfərlər ikitərəfli əlaqələrimizin çox möhkəm zəmində olmasını göstərir”

Prezidenti İlham Əliyev İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirib ki, müharibədən sonra Azərbaycana səfər edən ilk Avropa nümayəndə heyətisiniz və bu da İtaliya ilə Azərbaycan arasındakı əlaqələr çox sürətlə inkişaf etdiyini və siyasi əlaqələr ən yüksək səviyyədə olduğunu göstərir: “Şadam ki, siz Azərbaycana səfər edirsiniz. Müharibədən sonra Azərbaycana səfər edən ilk Avropa nümayəndə heyətisiniz. Yəqin ki, bu, təsadüfi deyil, çünki İtaliya ilə Azərbaycan arasındakı əlaqələr çox sürətlə inkişaf edir və bu gün ən yüksək səviyyədədir. Hesab edirəm ki, siyasi əlaqələr ən yüksək səviyyədədir. Mənim bu ilin əvvəlində İtaliyaya etdiyim dövlət səfəri bunun bariz nümunəsidir. Səfər zamanı bir çox önəmli sənədlər imzalanmışdır. Onların arasında Çox ölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd xüsusi yer tutur. Bu sənəd bizim strateji tərəfdaşlığımızı bir daha təsdiqlədi. Səfər zamanı həm Prezident, həm Baş nazirlə görüşlərim əsnasında bir çox önəmli məsələlər müzakirə olundu. Eyni zamanda, Senatın və Nümayəndələr Palatasının rəhbərləri ilə mənim görüşlərim də çox gözəl keçdi”.

Dövlət başçısı həmçinin İtaliya ölkəsi ilə bütün sahələr üzrə əlaqələrin daha geniş olacağının deyib: “İki il bundan əvvəl İtaliya Prezidenti cənab Mattarella Azərbaycanda rəsmi səfərdə idi. Bu səfərlər ikitərəfli əlaqələrimizin çox möhkəm zəmində olmasını göstərir”. Bu gün İtaliya-Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm bütün başqa sahələrdə çox uğurla inkişaf edir”.

## “İtaliya-Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək”

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bu gün İtaliya-Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm bütün başqa sahələrdə çox uğurla inkişaf edir: “Bu gün İtaliya-Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm bütün başqa sahələrdə çox uğurla inkişaf edir. Siz də bilirsiniz ki, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 6 milyard dollara çatmışdır. Bunun böyük hissəsi enerji resurslarına aiddir. Amma mən hesab edirəm ki, gələcək illərdə qeyri-neft sektoru da bizim aramızda xüsusi çəkiyə malik olacaq. Energetika sektoruna gəldikdə, bildiyiniz kimi, yaxın gələcəkdə TAP layihəsi istismara veriləcək və şübhəsiz ki, bu, İtaliya-Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək. Bizim humanitar sahə ilə bağlı da böyük planlarımız var və artıq bir çox reallaşan layihələrimiz var. İtaliyaya dövlət səfərim çərçivəsində, eyni zamanda, təhsil sahəsində əməkdaşlıq müzakirə olundu”.

## “İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılığa gəlmişik”

“İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılığa gəlmişik. Bakıya qayıdandan sonra mənim tərəfimdən bu məsələ ilə bağlı müvafiq göstərişlər verilmişdir. Hesab edirəm ki, yaxın gələcəkdə universitet üçün bina da inşa ediləcək”,-deyən dövlət başçısı bildirib ki, bu məsələ diqqətdədir: “Onu da bildirməliyəm ki, mənə verilən məlumat əsasında orada bir neçə fakültə fəaliyyət göstərəcək. O siyahıya baxanda gördüm ki, orada memarlıq fakültəsi yoxdur və təklif etdim ki, bu da əlavə olunsun. Çünki İtaliya memarlığı ümumbəşəri dəyərdir və ölkəmizdə geniş vüsət almış tikinti sektorunun əlbəttə ki, müasir görkəmi olmalıdır. Əlbəttə, İtaliya-Azərbaycan Universitetində təhsil alacaq gənclər iki ölkə arasındakı əlaqələrə xüsusi töhfə verəcəklər”.

## “Döyüş meydanında məğlubiyyətə uğrayarkən Ermənistan mülki vətəndaşları atəşə tutub”

Prezident İlham Əliyev görüş zamanı İtaliya Deputatlar Palatasının nümayəndə heyətinin Gəncədə, Ağdamda səfərdə olduqları üçün və hər şeyin şahidi olduqları üçün təşəkkürünü bildirib və qeyd edib ki, Ermənistan tərəfindən törədilmiş hərbi cinayətlər göz qabağındadır: “Mən, eyni zamanda, sizə təşəkkürümü bildirmək istəyirəm ki, siz həm Gəncəyə, həm Ağdama səfər etmisiniz, Ermənistan dövlətinin törətdiyi hərbi cinayətləri görmüsünüz. Ermənistan tərəfindən törədilmiş hərbi cinayətlər göz qabağındadır. Döyüş meydanında məğlubiyyətə uğrayarkən Ermənistan mülki vətəndaşları atəşə tutub”. “Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutmuşdur. Bu, hərbi cinayətdir və bu cinayətə görə Ermənistan rəhbərliyi cavab verəcək”,- deyən Prezident İlham Əliyev vurğulayıb ki, bu Ermənistan faşizminin eybəcər sifətini göstərən cinayətdir: “Müharibə zamanı 94 mülki şəxs həlak olmuşdur, 400-dən çox yaralanmışdır. Ballistik raketlərlə bu zərbə təsadüfi xarakter daşımırdı, məqsədyönlü şəkildə məhz mülki vətəndaşların yaşadığı məkana gecə vaxtı istiqamətləndirilmişdir ki, daha çox qurbanlar olsun. Ağdam şəhərini də gördünüz. Daha doğrusu, artıq şəhərdən bir şey qalmayıb, orada bütün binalar dağıdılıb. Bu, Ermənistan faşizminin eybəcər sifətini göstərən cinayətdir”.

Prezident İlham Əliyev onu de deyib ki, işğalçı, faşist xislətli erməni elə zənn edirdi ki, qayıtmayacağıq, ancaq biz döyüşə-döyüşə, onları diz çökdürərək torpaqlarımızdan qovduq: “Onlar hesab edirdilər ki, azərbaycanlılar bu torpaqlara heç vaxt qayıtmayacaqlar. Amma biz qayıtmışıq, döyüşə-döyüşə onları torpaqlarımızdan qovduq. Onlar bizim qabağımızda diz çökdülər”.

## “İndi ölkəmizin yeni dövrü başlayır, biz bütün o bölgələri yenidən quracığıq”

“İndi ölkəmizin yeni dövrü başlayır, biz bütün o bölgələri yenidən quracağıq. Artıq ilkin addımlar atılır, ilkin infrastruktur layihələrinə start verilib”,-deyən dövlət başçısı bildirib ki, işğal olunan torpaqları viran qoyublar, qanunsuz məskunlaşma siyasəti aparıblar: “Amma demək olar ki, Ağdamda gördüyünüz mənzərə azad edilmiş bütün torpaqlarda müşahidə olunur. Füzuli şəhərində də bir dənə salamat bina qalmayıb, Cəbrayıl şəhərində də. Zəngilan, Qubadlı eyni vəziyyətdədir. Kəlbəcər və Laçın rayonlarında Ermənistan dövləti qanunsuz məskunlaşma siyasəti aparmışdır. Bu da hərbi cinayət sayılır, Cenevrə Konvensiyalarına zidd olan bir addımdır. Ona görə bu rayonlarda bəzi yaşayış məntəqələrində bəzi evlər qalıb. Orada ermənilər yaşayırdılar. Ancaq noyabrın 10-dan dekabrın 1-nə qədər - o vaxt çərçivəsində onlar bu bölgələri tərk etməli idilər - onlar orada da vəhşilik törətdilər, evləri yandırdılar, sökdülər. Halbuki o evləri onlar yox, o vaxta qədər - 30 il bundan əvvəl orada yaşamış azərbaycanlılar tikmişdilər. Meşələri yandırdılar, ağacları kəsdilər, yəni, dünyanın gözü qarşısında vəhşilik törətdilər. Beynəlxalq media qurumları da bu barədə reportajlar hazırlayıb mətbuata vermişlər. Bütün dünya indi gördü ki, Azərbaycan hansı vandallarla üz-üzə qalmışdır və bu vandallara qarşı təkbaşına müharibə apararaq öz ərazi bütövlüyünü bərpa etmişdir. İndi bərpa dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq”.

## “Əsl dostluq isə özünü çətin anlarda büruzə verir”

“Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik”,-deyənə Prezident bildirib ki, artıq əsl dostlar görününməkdədir: “Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yəni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq. Əlbəttə, bir daha demək istəyirəm ki, dost ölkələrin şirkətləri bu işlərdə iştirak edəcəklər. Əsl dostluq isə özünü çətin anlarda büruzə verir. Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq. Sizin Azərbaycana səfəriniz bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur. Bir daha xoş gəlmisiniz”.

**RƏFİQƏ KAMALQIZI**

# Sergey Markov: "İlham Əliyev informasiya müharibəsində də Nikol Paşinyanı məğlub etdi"



**Rusiyanın nüfuzlu ictimai xadimi, politoloq, Siyasi Araşdırmalar İnstitutunun baş direktoru, Dövlət Dumasının 5-ci çağırış deputatı Sergey Markov TASS platformasında Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ uğrunda informasiya müharibəsi haqqında aparılan müzakirənin tezislərini qəbul etdiyini bildirib.**

Politoloq yazıb: Mənim məntiqimə görə bu kimi tezislərlə demək olar ki, razılaşmaq olar.

**1.** Ermənistan təkcə ərazi uğrundakı müharibəni deyil, həm də böyük bir üstünlüyə sahib olduğu Rusiya informasiya məkanındakı informasiya müharibəsini də itirdi. Azərbaycan həm müharibə ərazisində, həm də informasiya müharibəsində qalib gəldi.

**2.** Ermənistanın informasiya müharibəsində məğlubiyyətinin əsas səbəbi şəxsən və siyasi baxımdan Nikol Paşinyandır.

**3.** Ermənistanın əsas səhvi ondadır ki, İrəvanda informasiya müharibəsi qərargahı yox idi, çünki Moskva ilə zəif əlaqə mövcud idi. Və İrəvan informasiya müharibəsinin qərargahı rolunu Rusiyadakı erməni diasporuna və ermənipərəst siyasətçilərə ötürməyə cəsarət etmədi. Buna görə də nəhəng ermənipərəst informasiya ordusu rəhbərliksiz qaldı. Konstantin Zatulin və Marqarita Simonyan bu vəzifənin öhdəsindən Paşinyan və yoldaşlarından daha yaxşı gəlmiş olardı.

**4.** Azərbaycanın informasiya müharibəsindəki qələbəsinin əsas səbəbi rusdilli məkanda informasiya iş nöqtələrinin, yəni Azərbaycana dost insanlar və strukturların formalaşmasıdır. Və əksəriyyəti də ruslardır. Azərbaycanın mövqeyini çatdıra bildilər. Bundan əlavə, Azərbaycanın mövqeyi Rusiya rəhbərliyinin mövqeyini ciddi şəkildə nəzərə alır və heç vaxt bununla ziddiyyət təşkil etmirdi.

**5.** Azərbaycanın rusların Qafqazda ermənilərin mənafeyi uğrunda vuruşmaması lazım olduğu ilə bağlı əsas tezisi Rusiyada hərtərəfli dəstəklə qarşılandı.

**6.** Amma Ermənistanın Rusiyanın Ermənistan üçün savaşması lazım olduğu əsas tezisi Rusiyada böyük qıcıq doğurdu.

**7.** Azərbaycanın Paşinyanın Sorosun anti-Rusiya agenti olması ilə bağlı tezisi də Rusiyanı bitərəfliyə çox güclü itələdi.

**8.** Azərbaycanın Moskvadakı erməni diasporunun yaxşı yaşadığını və oğullarını Qarabağa döyüşə göndərmədiyini, ancaq Rusiyanı öz oğullarını ora göndərməyə məcbur etmək istədiyi tezisi- bu tezis Rusiyada tam dəstəkləndi.

**9.** Ermənistanın ermənilərin qardaş bir xristian xalqı olması tezisi, erməni diasporunun ən uğurlu tezisidir.

**10.** Ermənistanın Qarabağda yalnız Azərbaycanla müharibə etmədiyi, eyni zamanda Türkiyənin Rusiya ilə vəkil müharibəsi apardığı tezisi çox vacib idi və Ermənistanın bütün dostları tərəfindən fəal şəkildə təbliğ olunurdu. Ancaq onu birbaşa Vladimir Putin təkzib etdi. Nəticə etibarilə, Rusiya mediasındakı bütün nəhəng antitürk kampaniyası sıfıra getdi.

**11.** Rusiya mediası 2 eşelonda çıxış etdi. Xəbər proqramları Rusiya səlahiyyətliləri tərəfindən ciddi şəkildə idarə olunurdu, bu səbəbdən xəbər proqramlarında ciddi bitərəflik mövcud idi.

**12.** Amma siyasi tok-şoular Rusiya hakimiyyəti tərəfindən ciddi şəkildə nəzarət altında deyildi, buna görə də siyasi tok-şoularda çox güclü bir ermənipərəst qərəz var idi ki, buradakı erməni diasporunun çox güclü təsiri oldu.

**13.** Erməni və Azərbaycan diasporları Rusiya küçələrində çox təmkinli davranırdılar, çünki Moskva Rusiya ərazisindəki istənilən qarşıdurmanı sərt şəkildə yatırmağa hazır idi.

**14.** Şəxsən İlham Əliyev Rusiya televiziyasında Nikol Paşinyanı məğlub etdi. İlham Əliyev əla rus dili, yüksək nitq mədəniyyəti və mükəmməl təhsili ilə hər kəsi fəth etdi. Bərbad rus dilində danışaraq arxa planda qalan Paşinyan çox pis görünürdü.

**15.** İnformasiya müharibəsi bitməyib, lakin aktiv şəkildə davam etdiriləcək.

**16.** Əsas mübahisələr Türkiyənin rolu və Rusiya ilə münasibətlər idi. Göründüyü kimi, bu mövzu ən kəskin olacaq.

**17.** Amerika əleyhinə təbliğatın intensivliyi o qədər yüksəkdir ki, Rusiyada bir çoxları ABŞ-ın Qarabağ müharibəsinin təşəbbüskarı olduğuna inanırlar.

***Elçin Bayramlı***

# "YAŞAT" Fondu Prezidentin bəşəri məqsədlərinin təzahürüdür"



***"Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyev daimi öz çağırışları, təşəbbüsləri ilə bəşəri ideyalara xidmət etdiyini bütün dünyaya göstərib. Əlbəttə ki, bu təşəbbüslər, çağırışlar saysız-hesabsızdır. Biz bunu bütün sahələrdə hiss edirik, görürük." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.***

Komitə sədri vurğulayıb ki, bu gün Azərbaycan Respublikasının Prezidenti dünyada sülhün, əminamanlığın carçısı, təbliğatçısı kimi çıxış edir və özünün fəaliyyəti ilə, əməli işi ilə bunu bir daha dünya ictimaiyyətinə göstərir.

"Koronavirusla əlaqədar BMT-nin növbəti sessiyasının çağırılması və həmin sessiyada dövlətimizin başçısının çıxışı, onun irəli sürdüyü fikirlər dünyaya bir daha göstərdi ki, Azərbaycan Respublikasının Prezidenti insanların sağlamlığı, dünyada insanların xoşbəxt və sağlam yaşaması üçün əlindən gələn hər bir vasitədən istifadə edir və istifadə etməyə qadirdir. Çox yaxşı haldır ki, əfsuslar olsun, Ermənistan istisna olmaqla, Prezidentimizin bu təşəbbüsü bütün dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildi, alqışlanıldı və bu dünya tibb sahəsinə çox böyük bir dəstək oldu, insanların sağlamlığı üçün pandemiyaya qarşı mübarizənin gücləndirilməsi üçün bilavasitə qüvvələri səfərbər etdi.

Digər tərəfdən, dünyada baş verən müəyyən fəlakətlər, zəlzələlər, yanğınlar, insan qırğınları nəticəsində baş verən fəlakətlərə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev daimi öz dəstəyini göstərir və həmin o ziyan çəkmiş dövlətlərə Azərbaycan dövləti birinci sıralarda öz yardımını, köməyini göstərir. Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, humanitar konfranslar, görüşlər bir daha göstərir ki, Azərbaycan xalqı, Azərbaycan dövlətinin rəhbəri insanların kamilləşməsi, insanların qorunması, insanların maarifləndirilməsi yolunda öz təşəbbüslərini davam etdirməkdədir və bu təşəbbüslər bugünkü həyatımızda özünün real əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidentinin şəhid ailələrinə və qazilərə dəstək məqsədilə yaratdığı "YAŞAT" fondu məhz onun bəşəri istəklərinin, bəşəri məqsədlərinin bir təzahürüdür. Əlbəttə ki, şəhid ailələri, qazilər bizim üçün, xalqımızın hər bir nümayəndəsi üçün əzizdir. Çünki, 44 günlük Vətən Müharibəsində qazandığımız möhtəşəm qələbələr, ordumuzun şanlı zəfər yürüşü məhz şəhidlərimizin, qazilərimizin şücaəti, mətinliyi, vətənə, xalqa məhəbbəti sayəsində qazanılmışdır. Ölkə Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyev dəfələrlə öz çıxışlarında qeyd etmiş, şəhidlərimizə, qazilərimizə böyük hörmətini, məhəbbətini ifadə etmiş, yaralıykən onlara baş çəkmiş, şəhid ailələri ilə görüşmüş, onlara lazım olan bütün qayğını göstərmişdir. Bu gün ölkədə şəhid ailələrinə, qazilərə göstərilən qayğı və diqqət əvəzolunmazdır, əvəzsizdir. Onlar üçün minlərlə evlər tikilmiş, onlara minlərlə maşınlar verilmiş, onların sağlamlığının qorunması, onların adlarının əbədiləşdirilməsi üçün dövlət hər cür köməkliklərini əsirgəməmişdir. Belə bir fondun yaradılması əlbəttə ki, Azərbaycan xalqını ürəkdən sevindirir və hər bir kəs elə bilərəm ki, bu fondun fəal iştirakçısı olacaq, bu fonda öz maddi köməyini əsirgəməyəcək. Sözsüz ki, bu fond Azərbaycanda ən öndə gedən bizim şəhid ailələrinin, qazilərimizin vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarının genişləndirilməsi üçün əsaslı işlər görəcək, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi sahəsində əməli dəstək olacaq və gənclərimizi vətəni, xalqı, torpağı sevməyə ruhlandıracaqdır. Bu təşəbbüs bəşəri bir təşəbbüsdür və sözsüz ki, bizim hər birimiz bunu alqışlayırıq və ölkə rəhbərinə, Ali Baş Komandanımıza belə nəcib təşəbbüsləri üçün, şəhid ailələrinə, qazilərimizə göstərdiyi qayğı və diqqətə görə bir daha öz minnətdarlığımızı bildiririk. Qələbə bizimlədir, Azərbaycan xalqı qalibdir. Azərbaycan xalqı bundan sonra da öz Prezidenti, Ali Baş Komandanı ətrafında möhkəm birləşməklə, dünyada müdrik, qalib, yenilməz, sülhsevər bir xalq olduğunu bir daha nümayiş etdirəcəkdir", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# "Israel Hayom" qəzeti: Ermənistan-Azərbaycan münaqişəsinin dini müharibə kimi təqdim edilməsi vicdansız təbliğat taktikasıdır

***Yəhudilərə nifrət hissi Ermənistanın siyasi mədəniyyətində kök salıb və bu ölkədə dini müharibənin əsas dayağıdır.***

AZƏRTAC xəbər verir ki, Antisemitizmə qarşı mübarizə üzrə Haym Salomon adına Mərkəzin prezidenti və icraçı direktoru Pol Millerin İsraildə çıxan nüfuzlu ivritdilli "Israel Hayom" qəzetində dərc edilmiş "Artan semitizmə qarşı mübarizə üçün onun əsas mənbələrinin kökünü kəsmək lazımdır" sərlövhəli məqaləsi bu mövzuya həsr edilib. Miller vurğulayır ki, Dağlıq Qarabağ müharibəsi dövründə ermənipərəst KİV-lərin şərhçiləri bu münaqişəni "islamçı təcavüzün və xristian torpaqlarına ekspansiyanın nəticəsi", Azərbaycanın müttəfiqi olan Türkiyə tərəfindən ermənilərə qarşı ikinci "xristian soyqırımı" kimi təqdim edirdilər.

Pol Miller yazır: "Əhalisinin əksəriyyəti müsəlmanlar olan Azərbaycan müxtəlif konfessiyaların və müxtəlif etnosların dinc yanaşı yaşamasının mayakı kimi məşhurdur. Əsrlərboyu bu ölkədə yaşayan yəhudi icmasına səmimi münasibət buna əyani sübutdur. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin müsəlman dövləti Azərbaycan ilə xristian dövləti Ermənistan arasında dini müharibə kimi təqdim edilməsi vicdansız təbliğat taktikasıdır.

Digər tərəfdən, bu yaxınlarda - Ermənistan-Azərbaycan müharibəsi dövründə Paşinyan "The Jerusalem Post" qəzetinə müsahibəsində əsassız olaraq bəyan edirdi ki, "Türkiyə tərəfindən dəstəklənən suriyalı muzdlular, islam terrorçuları və İsrail indi bir tərəfdədirlər". KİV-lərdə suriyalı muzdluların ermənilərə qarşı döyüşməsi barədə belə mif yayılır, Dağlıq Qarabağ münaqişəsi haqqında məqalələrlə bərabər, Liviyada vuruşan suriyalı döyüşçülərin fotoşəkilləri dərc edilirdi".

Millerin fikrincə, Ermənistanın riyakarlığı noyabr ayının əvvəlində də üzə çıxmışdı. O vaxt Vyanadakı yəhudi obyektlərinə hücumdan sonra Paşinyan öz "Twitter" səhifəsində yazmışdı: "Bir aydan çoxdur ki, Dağlıq Qarabağ Azərbaycan-Türkiyə terrorçu tandeminə qarşı mübarizə aparır. Mən Avstriya xalqının dərdinə şərik olduğumu bildirir, həlak olanların ailələrinə səbir diləyir, yaralıların tezliklə sağalmasını arzu edirəm".

Amerikalı analitik vurğulayır: "Paşinyan öz şərhlərində Vyanada baş vermiş faciədən antisemitizmin xeyrinə kiçik bir siyasi arqument kimi istifadə edib, halbuki yəhudilərə nifrət hissi Ermənistanın siyasi mədəniyyətində kök salıb və bu ölkədə dini müharibənin əsas dayağıdır.

Ermənistanda nasistlərin əlaltılarının təşviq edilməsi və qəhrəmanlar kimi qələmə verilməsi təzə məsələ deyil. Antidiffamasiya Liqasının məlumatına görə, antisemit stereotiplərlə razılaşan iranlılar 56 faiz təşkil etdiyi halda, bu mövqedə dayanan ermənilər 58 faizdir. Eyni zamanda, Ermənistan Azərbaycan ilə İsrail arasında yəhudi-müsəlman münasibətlərini pozmaq üçün dəridən-qabıqdan çıxır, yəhudi dövlətini Azərbaycana silah satmaqda ittiham edir, lakin bütün bu cəhdlər uğursuzdur".

Müəllif vurğulayır ki, İsrail ilə Azərbaycan arasında müxtəlif sahələrdə sıx əməkdaşlıq və tərəfdaşlıq münasibətləri sayəsində bu iki ölkənin strateji əlaqələri inkişaf edib. Antisemitizmə qarşı mübarizə üzrə Haym Salomon adına Mərkəzin prezidenti və icraçı direktoru Pol Miller məqaləsinin sonunda yazır: "Vurğulamaq lazımdır ki, İsrail Azərbaycanın müstəqilliyini tanımış ilk ölkələrdən biri olub. İsrail-Azərbaycan münasibətləri strateji xarakter daşıyır və ən yüksək səviyyədə - hökumətlərarası və dövlətlərarası etimad, daimi qarşılıqlı dialoq səviyyəsində dəstəklənir. Bu gün bu strateji tərəfdaşlıq iqtisadiyyatın müxtəlif sektorlarında, o cümlədən kənd təsərrüfatı, yüksək texnologiyalar, səhiyyə və hərbi-texniki tərəfdaşlıq sahələrində həyata keçirilir. Qeyd etmək lazımdır ki, İsrail dünya bazarında Azərbaycan neftinin əsas strateji alıcılarından biridir".

Həmçinin diqqətə çatdırılır ki, bunlar təkcə Azərbaycana qarşı deyil, bəşəriyyətə qarşı yönəlmiş terror aktıdır. Ermənistanın mülki əhaliyə və ekoloji mühitə qarşı törətdiyi bu terror aktının çox təhlükəli tendensiya olması vurğulanır. Bundan əlavə, belə vəhşiliklərin davam etməməsi, digər yerlərdə də presedent yaratmaması üçün beynəlxalq ictimaiyyətin, xüsusilə xarici medianın məsələyə diqqətlə yanaşmasının zəruriliyi qeyd olunur.

***Qırx dörd günlük Vətən müharibəsinin gedişində reallıqlar hər gün daha da aydın şəkildə gün işığına çıxırdı. Nəticədə isə sübut olundu ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu və hər detalı ən incə məqamına qədər hesablayan və diqqətə alan uzaqgörən diplomatiyamız hər hansı bir zəif düşmən üzərində deyil, güclü təşkilatlanmış bir düşmən, eyni zamanda, onu himayə edən qərəzli, məkrli qüvvələr üzərində qələbə çaldı. Müharibə bir neçə istiqamətdə qızğın xarakter alır, Azərbaycan isə bütün istiqamətlərdə Ermənistanı və onu himayə edən qüvvələri hər keçən gün bir az daha artıq məhv edirdi. AZƏRTAC xəbər verir ki, bu fikirləri politoloq Şəbnəm Həsənova bildirib.***



# Azərbaycan Ordusu illər ərzində yüksək dərəcədə təşkilatlanmış güclü düşmənə qalib gəlib













Politoloq qeyd edib ki, əvvəlcə hərbi sahədə əldə etdiyimiz uğurları dəyərləndirərkən bir neçə məqamları vurğulamaq lazımdır. Əvvəla hər rayonun, kəndin azad edilməsi ilə bölgədə aşkarlanan nəhəng hərbi istehkamlar, məhv edilmiş və ya götürülmüş hərbi texnika, silah-sursat açıq şəkildə nümayiş etdirir ki, Azərbaycan Ordusunun qarşısında illər ərzində yüksək dərəcədə təşkilatlanmış güclü düşmən olub. Belə ki, mənfur düşmən qarşı tərəfin maksimum itki verməsi məqsədilə işğal etdiyi ərazilərdə müasir texnologiyalara uyğun müdafiə sədləri qurub, istehkamlar tikib və bunun üçün böyük məbləğdə vəsait sərf edib. Eyni zamanda, Ermənistan pulsuz əldə edilən hərbi texnika və sursatlar hesabına texniki baxımdan yüksək dərəcədə təminatlı orduya malik olmaqla yanaşı, Ermənistan ordusunun zabitləri Fransada, Rusiyada, Livanda və başqa ölkələrdə təhsil alıblar, xidmət ediblər və müasir hərbi texnologiyaları, yenilikləri öyrəniblər. 30 il ərzində Ermənistan hərbçiləri həmin ərazilərə dərindən bələd olublar. Qarabağı azad edən Azərbaycan Ordusunun bir çox gənc zabit, gizir və əsgərləri isə ilk dəfə idi ki, həmin coğrafiyada vuruşurdular. Buna baxmayaraq, gənc zabit və əsgərlərimiz o dərəcədə əzmli və güclü, onların ürəklərində olan Vətən sevgisi isə o dərəcədə alovlu idi ki, bunun qarşısında heç bir silah-sursat tab gətirə bilmirdi. Bu baxımdan da Şuşanın azad edilməsi istiqamətində gedən əlbəyaxa döyüşlərdə hər bir erməni əsgər və zabiti fiziki cəhətdən elə məhv edilmişdi ki, sanki bu yolla mərd oğullarımız mənfur düşməndən Xocalı soyqırımının qisasını alırdı.

Ş.Həsənova qeyd edib ki, səngərdə əldə etdiyimiz uğurlar eynilə diplomatik masada da davam edirdi. 44 günlük Vətən müharibəsi dönəmində ölkə başçımızın prosesi yüksək peşəkarlıqla, çevikliklə idarə etməsi, zəruri müdaxilələri və korrektələri diplomatik masada da bizi düzgün hədəflənmiş uğura doğru aparırdı. Ölkə başçımız tərəfindən düşünülmüş siyasətin nəticəsidir ki, illər ərzində Ermənistan heç bir perspektivi olmayan dalan dövlətə çevrildi. Bu baxımdan da əminliklə deyə bilirik ki, Azərbaycanın qazandığı bu qələbə sadəcə 44 günlük müharibənin nəticəsi deyil. Belə ki, 17 illik fəaliyyəti dövründə Prezident İlham Əliyevin düşünülmüş şəkildə yürütdüyü siyasət nəticəsində münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı hüquqi baza yaradıldı, dünyada Azərbaycan haqqında obyektiv fikir formalaşdırıldı. Əgər vaxtilə bəzi beynəlxalq təşkilatlar işğalçını öz adı ilə çağırmaq istəmir, işğalla bağlı qəbul edilmiş sənədlərdə işğalçının kim olduğunu göstərmək istəmirdilərsə bu gün bütün dünya Azərbaycan dövlətinin qalib dövlət, xalqımızın isə qürurlu, məğrur, yenilməz xalq olduğu reallığını görür və qəbul edir.

Ölkənin potensialı bütün platformalarda Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsinə yönəldildi. Belə ki, bu müddət ərzində isə döyüşlər sadəcə səngərdə və diplomatik masada deyil, informasiya məkanında da qızğın xarakter aldı. Ermənistanın əvvəlki dövrdə olduğu kimi, istər erməni lobbisinin, istərsə də xarici havadarlarının dəstəyi və köməyi ilə münaqişə haqqında dünyada informasiya vakuumu yaratmaq, öz yalan, ikiüzlü, riyakar siyasətini beynəlxalq ictimaiyyətə sırımaq üçün uğursuz cəhdlər göstərməsinə baxmayaraq informasiya məkanında da ən Ali vəzifəni öz üzərinə götürən və sanki informasiya məkanının da Ali Baş Komandanı funksiyasını məharətlə icra edən cənab Prezident 26 xarici mediaya müsahibələr verdi, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, səbəbləri, habelə Azərbaycanın mövqeyini əsaslandıran hüquqi, siyasi, mənəvi və digər amilləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı, Azərbaycanın haqlı mövqeyini tutarlı faktlarla əsaslandırdı və sual doğuran məsələlərə aydınlıq gətirərək reallıqları dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Bütün cinahlarda gedən döyüşlərə şəxsən rəhbərlik edən Cənab Prezident İlham Əliyev Azərbaycan xalqının milli maraqlarını qətiyyətlə müdafiə edərək tarixi qələbəyə imza atdı.

Qələbəmiz isə təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə həm də regionda tamamilə yeni bir reallıq yaratdı. Fransanın, qərəzli mövqe nümayiş etdirən dairələrin mövcud münaqişədən istifadə edərək Cənubi Qafqazda siyasi oyunlar qurmaqla öz maraqlarını təmin etmək istiqamətində qurduğu planları Prezident İlham Əliyev kökündən məhv etdi.

# Müharibənin nəticəsinə təsir edən faktorlar (İkinci Qarabağ müharibəsinin nümunəsində)

***“Müharibənin başa çatması” (War termination) nəzəriyyəsinə görə, müharibənin müddəti və nəticəsi məqsədlərdə güzəştə getmək istəyi ilə sıx bağlıdır. Bu istəyin özünü də müharibənin gedişi müəyyənləşdirir. Liderlər qarşı tərəfin güzəştə getməsinə təsir edən amilləri - gücü, qətiyyəti və maliyyə resurslarını dəyərləndirməklə öz tələblərini dəyişdirə, hərbi nəticələr barədə gözləntilərin döyüş meydanında özünü doğruldub-doğrultmamasından asılı olaraq müharibə məqsədlərini yenidən nəzərdən keçirə bilərlər. Azərbaycan dövləti İkinci Qarabağ müharibəsində Ermənistan rəhbərliyini kapitulyasiya müqaviləsinə imza atmağa vadar etməklə qarşıya qoyulan bütün məqsədlərə çatıb.***



AZƏRTAC xəbər verir ki, bu fikirlər milli təhlükəsizlik üzrə ekspert, Silahlı Qüvvələrin Hərbi Akademiyasının zabiti mayor Xəyal İsgəndərovun “Müharibənin nəticəsinə təsir edən faktorlar (İkinci Qarabağ müharibəsinin nümunəsində)” sərlövhəli məqaləsində yer alıb. Məqaləni təqdim edirik.

Əslində müharibələrin bitmə müddəti ilə bağlı hər hansı bir mülahizə irəli sürmək üçün əsaslı bir elmi tədqiqatın aparılması, müxtəlif faktorların qiymətləndirilməsi vacibdir ki, bu da ciddi riyazi hesablamalarla müşayiət olunmalıdır. Bu tip problemlə bağlı aparılan tədqiqat işlərinin sayı demək olar ki, məhduddur. Yalnız B.L.Slantçev 1816-1991-ci illər ərzində aparılan dövlətlərarası müharibələri təhlil etməklə onların müddətləri və sülh şərtləri barədə müəyyən mülahizələr irəli sürüb. A.A.Stein və B.M.Russettin də tədqiqat işi müharibələrin nəticələrinin qiymətləndirilməsi məsələlərinə həsr edilib.

XX əsrin əvvəllərinə qədər müharibənin başa çatması və sülh şərtləri ilə bağlı təxminlər, əsasən, şəxsi heyət itkisinə görə formalaşdırılırdı. Belə bir hipotez var idi ki, müharibədəki şəxsi heyət itkisi ilə müharibənin nəticəsi arasında çox ciddi asılılıq mövcuddur. Bu yanaşma XX əsrin 60-70-ci illərində aparılan tədqiqat işlərində özünü büruzə verib. Levis Riçardson qeyd edir ki, əhalisinin sayı daha az olan tərəf ümumi əhalisinin 0,05-5 faizini itirərsə, onda onun məğlubiyyəti qaçılmazdır. Klinqberqə görə, öz əhalisinin təxminən 3-4 faizini itirən tərəf təslim olmağa meyil edir. Lakin ötən əsrin 80-ci illərindən etibarən tədqiqatçılar bu yanaşmanın düzgün olmadığını iddia etməyə başladılar. Məsələn, Riçardsonun fikri ilə razılaşmayan Steven Rosen qeyd edib ki, “təxminən iki əsr müddətində baş vermiş 77 müharibədən yalnız 2-də ümumi əhalisinin 5 faizdən çoxunu itirmiş ölkələr məğlub olub. 77 müharibədən 23-də məğlub olan tərəf ümumi əhalisinin 0,05 faizindən az itki verib”. Nəticə etibarilə, həmin dövrün tədqiqatçıları yalnız şəxsi heyət sayını deyil, ümumi hərbi gücü diqqət mərkəzinə gətirməyə başladılar. Məlumdur ki, hərbi güc üç əsas faktordan asılıdır: şəxsi heyət, silah və texnika, təşkilati struktur. Bununla yanaşı, Rosen əsgərin fədakarlığını da xüsusi olaraq vurğulayıb.

Beləliklə, XX əsrin 80-ci illərindən başlayaraq, aparılan tədqiqatlarda müharibədə qazanılan müvəffəqiyyət bilavasitə hərb məharəti və texnologiya ilə əlaqələndirildi. Ötən əsrin sonlarından etibarən tədqiqatçılar, əsasən, müharibənin mənşəyini, müharibə müddətindəki və müharibədən bilavasitə sonrakı diplomatiyanı öyrənməyə başladılar. Bu məqalədə ümumiləşdirilmiş məlumatlar əsasında İkinci Qarabağ müharibəsinin bitməsi və sülh şərtləri barədə təhlillərin nəticələri təqdim edilir. Müharibənin müddəti onun rəsmən elan edilməsindən sülh və ya atəşkəs müqaviləsinin qüvvəyə mindiyi və bununla da həlledici döyüşlərin dayandığı ana qədər götürülür. Tərəflərinin hər biri üçün müharibənin aşağıdakı dörd nəticəsi ola bilər: məğlubiyyət, kompromis, mənfəət əldəetmə, qələbə.

Bəzi mənbələrdə çox nadir hallarda baş versə də müharibənin nəticəsi kimi heç-heçə (stalemate) də göstərilir. Azərbaycan bu nəticələrdən ən yüksəyinə - qələbəyə nail oldu. Çünki Müzəffər Ali Baş Komandanın qətiyyəti, Silahlı Qüvvələrimizin imkan və qabiliyyətləri, xalqımızın birliyi bizim bu nəticəni əldə etməyimizə tam imkan verdi. Beləliklə, 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasın Prezidentinin müharibənin bitməsi ilə bağlı birgə bəyanatı imzalandı. Bu bəyanatla Azərbaycanın qələbəsi və Ermənistanın kapitulyasiyası birmənalı elan olundu. Müharibə başlamazdan öncə Ermənistanın münaqişədən mənfəət əldə etmə imkanı var idisə (Dağlıq Qarabağa muxtariyyətin verilməsi), İkinci Qarabağ müharibəsinin ilk mərhələsində (əks-hücum əməliyyatlarının başladılması və düşmənin müdafiə xəttinin yarılması) İrəvanın son iki nəticədən tamamilə məhrum olması məlum idi. Müharibənin ilk günlərindən şərtləri diktə edən tərəf Azərbaycan idi. Qeyd edək ki, rəsmi mənbələrdə Ermənistan ordusunun şəxsi heyət itkisi 2500-3000 nəfər göstərilir. Lakin bu, faktdır ki, Ermənistan rəhbərliyi itkilərin sayını xalqdan gizlədir, döyüş meydanında qalmış yüzlərlə cəsədi götürməkdən imtina edir, həlak olanları itkin düşmüş və ya fərarilik etmiş kimi qələmə verir. Hələ oktyabrın ortalarında türk və rus mətbuatında Ermənistan ordusunun təxminən 8 min, noyabrın əvvəllərində isə 13 min nəfərə qədər itki verməsi ilə bağlı məlumatlar yayılmışdı. Riçardsonun yanaşması ilə təxminən 2,5 milyon nəfər əhalisi olan Ermənistan noyabrın əvvəllərində ümumi əhalisinin 0,05 faizindən çoxunu itirmişdi ki, bu da məğlubiyyətə aparan ən əsas səbəblərdən biri idi. Çoxsaylı şəxsi heyət və hərbi texnika itkisinə məruz qalan Ermənistan həmin vaxt Azərbaycan tərəfinin şərtlərini qəbul etməklə sonradan verdiyi itkinin qarşısını ala bilərdi. Lakin Ermənistanın səbatsız siyasi rəhbərliyi şəxsi imicini düşündüyündən vəziyyəti real qiymətləndirə bilmədi.

Beləliklə, Ermənistanı müharibənin ən ağır nəticələri (kompromis və məğlubiyyət) ilə üz-üzə qoydu. Bu müharibədə Azərbaycan qəti qələbə qazandı. Lakin belə iddia edənlər də var ki, Azərbaycan Ordusu hücumu davam etdirməklə kapitulyasiya müqaviləsinə qədər Ermənistanın işğalında olan digər əraziləri də döyüşlə azad edə bilərdi. Fikrimizcə, bu çox qeyri-peşəkar bir yanaşmadır. Kəlbəcərin və Laçının coğrafi relyefi, Ağdərə-Ağdam istiqamətindəki istehkam qurğuları ən azından peşəkar hərbçilərə məlumdur. Şübhəsiz ki, müzəffər Azərbaycan əsgəri döyüşərək bu əraziləri də işğaldan azad etmək iqtidarında idi. Lakin bu da aydındır ki, həmin əməliyyatlar itkisiz mümkün deyildi və hava şəraiti ordunun irəliləməsinə öz mənfi təsirini göstərəcəkdi. Burada artıq Prezident İlham Əliyev siyasi uzaqgörənliyi və diplomatiyası öz sözünü dedi, əlavə itkilərə imkan vermədən digər torpaqlarımızın erməni işğalçılarından azad edilməsinə nail olundu. 10 noyabr müqaviləsi tamamilə Azərbaycanın xeyrinə və vaxtında imzalanmış bir sənəddir.

Digər ən çox müzakirə olunan məsələ isə Rusiya sülhməramlılarının yerləşdirilməsi ilə bağlıdır. “Əgər işğal olunmuş ərazilərdən son erməni əsgəri çıxarılana qədər müharibə davam etsəydi, rus sülhməramlılarını yerləşdirməyə ehtiyac qalmayacaqdı” deyə fikirlər səsləndirilir. Bu da düzgün yanaşma deyil. Siyasi və hərbi rəhbərliyin məqsədi erməni işğalçılarını, erməni əsgərini qovmaq idi ki, Ordu bu işi müvəffəqiyyətlə yerinə yetirdi. Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır. Onları yaşadıqları yerdən qovmaq heç bir zaman Azərbaycan siyasi kursunda nəzərdə tutulmayıb. Prezident İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi Dağlıq Qarabağda döyüşən hərbi qüvvələrin şəxsi heyətinin 90 faizi Ermənistan vətəndaşları idi. Ona görə də Qarabağın ermənilər yaşayan hissəsində sülhməramlı missiyanın yerləşdirilməsi bütövlükdə Azərbaycanın məqsədinə xidmət edir. Çünki orada sülhməramlı əsgərlər olmasaydı, heç kim təminat vermir ki, Ermənistandan olan təxribatçılar keçmişdə etdikləri kimi, Qarabağ ermənilərindən bir neçəsini öldürüb “Azərbaycanlılar əliyalın erməniləri qətl edir” imici yaratmağa çalışmayacaqdı. Bundan əlavə, Rusiyanın ən ali səviyyədə Qarabağın Azərbaycanın tərkib hissəsi kimi dəfələrlə vurğulaması ərazi bütövlüyümüzə və beynəlxalq hüquq normalarına olan hörmətin göstəricisidir. Noyabrın 10-dakı razılaşmasına əsasən, Dağlıq Qarabağda 1960 rus əsgərinin yerləşdirilməsi qərara alınıb. Bunu “Qarabağda rus ordusu yerləşdirilib” kimi təqdim etmək düzgün deyil.

Onu da qeyd etmək lazımdır ki, Qarabağda rus sülhməramlıları ilə yanaşı, qardaş Türkiyə Respublikasından gələcək əsgərlər də xidmət göstərəcəklər və Rusiya-Türkiyə Birgə Müşahidə Mərkəzi yaradılacaq. Həmin mərkəzin yeri isə Azərbaycan tərəfindən müəyyənləşdiriləcək. Bu baxımdan Azərbaycanın hərbi və diplomatik qələbəsinə kölgə salınmasına qəti yol verilməməlidir.

## Himalay Məmişov: 83 mülki şəhidin ailəsinə sosial ödəniş təyinatı yekunlaşıb



Şəhid ailələrinin, müharibə əlillərinin, veteranların həm maddi rifahının yaxşılaşdırılması, həm də onların sosial problemlərinin həll olunması Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Həm Birinci Qarabağ müharibəsi, həm Vətən Müharibəsində iştirak edən, şəhid olan hərbi qulluqçuların ailələrinin sosial qayğılarının həll edilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Bu istiqamətdə iş aparılır. Onların həm müvafiq sosial təminatlarla, ödənişlərlə təmin olunması üçün hazırlıq işləri gedir. Artıq mülki şəhidlərimizlə bağlı sosial ödənişlərin təyinatı həyata keçirilib. Bu ay ərzində onların ödənişləri təmin ediləcək. 83 mülki şəhidin ailəsinə sosial ödəniş təyinatı yekunlaşıb. Onlardan 151 nəfərə sosial müavinət təyin olunub, 196 nəfərə təqaüd, 140 nəfərə pensiya təyinatı həyata keçirilib.

AZƏRTAC xəbər verir ki, bu sözləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov deyib.

O, həmçinin bildirib: “Şəhid hərbi qulluqçularımızın ailələrinin sosial təminat hüquqlarının həyata keçirilməsi ilə bağlı hazırda Dövlət Sosial Müdafiə Fondu və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində müvafiq işçi qrupları yaradılıb. Onlar ödənişlərin təyinatlarının həyata keçirilməsi, sənədləşmənin hazırlanması məqsədilə müvafiq işlər aparırlar. Fond olaraq qarşımızda duran əsas hədəflərdən biri qısa müddət ərzində həmin sosial ödənişlərin təyin edilərək ödənişə göndərilməsidir. Sənədləşmənin mərkəzləşmiş qaydada həyata keçirilməsi ilə bağlı təkliflər hazırlanıb. Məqsədimiz şəhid ailələrinə əziyyət vermədən sənədləşmənin mərkəzi qaydada həyata keçirilməsidir. Bununla əlaqədar Dövlət Sosial Müdafiə Fondu və onun yerli bölmələri tərəfindən şəhid ailələrinə mütəmadi dəstək göstərilir. Müvafiq sənədlərin hazırlanması Fond tərəfindən həyata keçirilir və qısa müddət ərzində həmin sənədlər hazırlanaraq təyinata göndərilir”.

## “İtaliya Azərbaycanın haqlı mövqeyini dəstəkləyən ölkələrdəndir”



“Bu gün İtaliya ilə Azərbaycan arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələr çox sürətlə inkişaf edir. Azərbaycan İtaliya üçün enerji daşıyıcılarının ilk ixracatçısı olduğu kimi, İtaliya da Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Ölkələrimiz arasında ötən il ticarət dövriyyəsi 6 milyard dollara çatıb. Nəzərə alsaq ki, yaxın gələcəkdə TAP layihəsi istismara veriləcək, bu da İtaliya-Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək”.

Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, bu ilin əvvəlinə olan məlumata əsasən müstəqillik illərində İtaliya Azərbaycan iqtisadiyyatına 770 milyondan çox, Azərbaycan isə İtaliyaya 1,7 milyard ABŞ dolları həcmində investisiya yatırıb: “Ölkələrimiz arasında iqtisadi əlaqələr əsasən neft-qaz və enerji sektorunu əhatə etsə də, son illərdə qeyri-neft sektoru üzrə də ciddi əməkdaşlıq əlaqələri qurulub. Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və s. sektorlarda İtaliyanın 114 şirkəti fəaliyyət göstərir. İtaliya şirkətləri həmçinin ölkəmizin neft-qaz sektorunda dəyəri 9.9 milyard ABŞ dolları olan 277 layihədə, qeyri-neft sektorunda isə dəyəri 708 milyon ABŞ dolları olan 37 layihədə işlərdə podratçı kimi iştirak edirlər. Bu statistika ikitərəfli münasibətlərdə iqtisadi faktorun güclü element kimi çıxış etməsinin göstəricisidir”.

Sədaqət Vəliyeva əlavə edib ki, 44 günlük müharibə və münaqişənin siyasi həll dövründə İtaliya Azərbaycanın haqlı mövqeyini dəstəkləyən ölkələrdən olub: “İtaliyanın Neapol şəhərinin Ottaviano, Liveri, Kampobasso əyalətinin Sepino və San Culiano del Sannio bələdiyyələrinin ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən, Ermənistanın təcavüzünü pisləyən sənədlər qəbul etməsi, bir sıra italiyalı siyasətçilərin, parlamentarilərin Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən bəyanatlar verməsi, eyni zamanda, İtaliya parlamentinin Deputatlar Palatasının və Senatın nümayəndə heyətinin Azərbaycana səfərə gəlməsi, onların Gəncə və Ağdam şəhərlərində erməni barbarlığını, vandalizmini, terrorunun izlərini əyani şəkildə görməsi bir daha ona işarə edir ki, İtaliya Azərbaycana əsl dost ölkədir. Bu mənada, İtaliya şirkətlərinin işğaldan azad olunmuş torpaqlarımızda bərpa işlərində iştiraka cəlb edilməsi təkliflərinin irəli sürülməsi də təsadüfi deyildir”.

# Siyasi nüfuzunu itirən Fransa Senatının qətnaməsi adi kağız parçasıdır

**“İndi həqiqət anıdır. Sən kimin tərəfindəsən? Haqqın, yoxsa şərin? Dostun, yoxsa düşmənin? Həqiqət anıdır - mənim üçün, xalqımız üçün,hamımız üçün. Əlbəttə ki, bu günlərdə bizə dəstək olan ölkələri, təşkilatları, insanları heç vaxt unutmayacağıq”**

***İlham Əliyev***

Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandanımızın bu müdrik kəlamı son dərəcə düşündürücü olmaqla əjdadımızın əsrlər boyu qazandığı zəngin dövlətçilik təcrübəsinin dəqiq ifadəsidir.

Azərbaycan xalqının 30 ilə yaxın müddətdə həsrətində olduğu doğma Qarabağ və Qarabağ ətrafı 7 rayonumuzun işğaldan azad olunması ilə nəticələnən şanlı Vətən müharibəsi nəinki Cənubi Qafqazda, ümumilikdə yaxın və uzaq coğrafiyada tamamilə yeni geosiyasi reallıqlar, güc nisbətləri, ikitərəfli və çoxtərəfli siyasi və iqtisadi münasibətlər sistemi formalaşdırdı. Ölkə başçısı, Ali Baş Komandanımız İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan xalqı bu taleyüklü məqamlarda dostunu da, düşməninə havadarlıq edənləri də bir daha gördü və tanıdı. Bu müharibə həm də Azərbaycan xalqının birliyini, yenilməzliyini, əyilməz qürurunu, ruhunu, müzəffər ordumuzun döyüş qabiliyyətini, əsgər və zabitlərimizin igidliyini, cəsarətini və qəhrəmanlığını bütün dünyaya nümayiş etdirdi.

İkinci Qarabağ müharibəsi Azərbaycanın parlaq hərbi və diplomatik qələbəsi ilə başa çatdı və Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşdu. Dekabrın 1-də Laçının işğaldan azad olunması ilə Azərbaycan ərazi bütövlüyünü, suverenliyini, dövlət sərhədlərini tam bərpa etdi və bununla da Qarabağın Azərbaycana məxsus olması haqqında tarixi, hüquqi, siyasi həqiqət de-fakto və de-yure təsdiqini tapdı. Azərbaycan əzəli düşmənini həm döyüş meydanında, həm siyasi-diplomatik arenada, həm də informasiya müharibəsində diz çökdürərək möhtəşəm tarixi və şanlı Zəfərə imza atdı.

Xüsusi qeyd olunmalıdır ki, münaqişə dövrü ərzində ən yüksək beynəlxalq səviyyələrdə - BMT-nin Təhlükəsizlik Şurası, ATƏT, Avropa İttifaqı, Avropa Parlamenti, İslam Əməkdaşıq Təşkilatı, Qoşulmama Hərəkatına üzv ölkələr, eləcə də dünyanın əksər dövlətləri və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın beynəlxalq hüquqa və tarixi, siyasi faktlara əsaslanan haqlı mövqeyi birmənalı olaraq dəstəklənmiş, erməni qoşunlarının qeyd-şərtsiz və dərhal işğal edilmiş ərazilərdən çıxarılması haqda qətnamələr və digər rəsmi sənədlər qəbul edilməsinə baxmayaraq, Ermənistan bu sənədlərə məhəl qoymayaraq və beynəlxalq hüququ ayaq altına atdı. Paşinyanın iki illik üzdəniraq hakimiyyəti dövründə isə ermənilər daha da azğınlaşaraq, danışıqlar prosesini pozdular, həyasızcasına utanmadan “Qarabağ Ermənistandır” dedilər, Azərbaycanın döyünən ürəyi, mədəni paytaxtı olan qədim Şuşanı “paytaxt” elan etdilər, “yeni müharibə və yeni torpaqlar” iddiası ilə həm bizə, həm də beynəlxalq hüquqa meydan oxudular. Nəticəsi nə oldu? İşğalçı Ermənistan tam məğlubiyyətə uğradı, “məğlubedilməz ordusu” darmadağın edildi, ermənilər yalnız döyüş meydanında deyil, bütün dünya qarşısında özlərini rüsvay etdilər və çıxışı olmayan dalana düşdülər.

Dövlətimizə edilən bütün siyasi təzyiqlərə baxmayaraq Xalq-İqtidar-Ordu birliyinin təcəssüm etdirdiyi müzəffər Ali Baş Komandanımızın “dəmir yumruğu” və Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə və bununla bağlı qəbul olunmuş bütün beynəlxalq qətnamələri icra etməyə müvəffəq oldu. Daha dəqiq desək, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı qəbul etdiyi və ATƏT-in Minsk qrupunun yerinə yetirə bilmədiyi 4 qətnaməni Azərbaycan özü, təkbaşına icra etdi və Ermənistanı kapitulyasiya sənədini imzalamağa məcbur etdi. Başqa sözlə, 10 noyabr tarixində məlum üçtərəfli Bəyannamənin qəbul edilməsi ilə Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinə son nöqtə qoyuldu.



***Şəmsəddin Hacıyev***
***YAP Səbail rayon təşkilatının sədri, iqtisad elmləri doktoru, professor***

Cari ilin sentyabrın 27-də başlayan Vətən müharibəsi dövründə ən çox müzakirə olunan mövzulardan biri məhz münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin ötən dövr ərzindəki fəaliyyəti, daha doğrusu fəaliyyətsizliyi olmuşdur. Hamı tərəfindən görünən və qəbul edilən həqiqət odur ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri 28 illik fəaliyyətləri dövründə sanki danışıqlar xatirinə danışıqlar aparmış, hər vəchlə status-kvonun saxlanılmasına cəhd göstərmiş, Ermənistanın işğalçı, aqressiv siyasətinə göz yummuş və dünya ictimaiyyətini münaqişənin hərb yolu ilə həllinin mümkünsüzlüyünə inandırmağa çalışmışlar. Ötən illərdə Azərbaycan Prezidenti cənab İlham Əliyev ən ali beynəlxalq tribunalarda, platformalarda bu məsələlərə dəfələrlə diqqət çəkmiş, Azərbaycanın münaqişədəki haqlı, ədalətli və prinsipial mövqeyini dünya ictimaiyyətinə lazımi səviyyədə çatdırmışdır. Xüsusilə, Ermənistan silahlı qüvvələrinin növbəti təxribatına qarşı əks-hücum əməliyyatlarının başlandığı ilk gündən etibarən Ali Baş Komandanımız dünyanın aparıcı telekanallarına verdiyi 30-dan çox müsahibələrində işğalçı Ermənistanın, erməni diasporunu və onun havadarlarının Dağlıq Qarabağla bağlı yalançı, uydurma təbliğat və dezinforma-siyalarını bütün mənalarda ifşa etməklə yanaşı, döyüş meydanında baş verənlər və ölkəmiz haqqında, Qarabağın tarixi və gələcəyi ilə bağlı dəqiq, düzgün məlumatları real faktlara və tarixi mənbələrə əsaslanmaqla sistemli şəkildə bütün dünya ictimaiyyətinə və daxili auditoriyaya çatdırmaqla, bir daha bəyan etdi ki, Azərbaycan öz torpağında və öz torpaqları uğrunda haqlı mübarizə aparır, bizim işimiz beynəlxaq hüquqa uyğun haqq işidir, döyüş meydanında Azərbaycan ordusu, onun əsgər və zabitləri düşmənin yalnız canlı quvvəsini, hərbi obyektlərini və texnikasını hədəfə alır, döyüşdə yalnız Azərbaycan vətəndaşları iştirak edir, biz böyük, cəsur və qəhrəman xalqıq, Azərbaycan dövləti güclü və qüdrətli dövlətdir, Azərbaycanda sarsılmaz Xalq-İqtidar-Ordu birliyi mövcuddur, biz milli maraqlarımıza uyğun müstəqil siyasət aparırıq və bizi bu yoldan heç bir qüvvə döndərə bilməz.

Beləliklə, əminliklə deyə bilərik ki, çox qısa müddətdə, cəmi 44 gün ərzində Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyev həm döyüş meydanında, həm də informasiya məkanında mənfur işğalçının və onun havadarlarının illərlə hazırladıqları və həyata keçirməyə çalışdıqları xain planlarını boşa çıxartdı, böyük səbr, təmkin və qətiyyətlə döyüş meydanında misilsiz hərbi zəfər qazandı, erməni ordusunu darmadağın etdi və xalqımızın əzəli düşməninin sözün əsl mənasında belini qırdı, illərlə formalaşdırılan erməni miflərini, yalanlarını bütün dünya ictimaiyyəti qarşısında ifşa etdi və işğalçıya layiq olduğu yerini göstərdi. Azərbaycan bu möhtəşəm qələbəsi ilə işğalçını elə bir vəziyyətə saldı ki, ermənilər nəinki uzun müddət özlərinə gələ bilməyəcəklər, hətta Azərbaycan torpaqlarına tərəf baxmağa belə cəsarət etməyəcəklər.

10 noyabr tarixli Bəyanatdan sonra Azərbaycan və dost-qardaş ölkələr, bütün sülhsevər ictimaiyyət xalqımızın, dövlətimizin bu tarixi nailiyyətini və şanlı qələbəsini sevinclə qeyd edərkən təəssüf ki, işğalçı Ermənistanın havadarları yenə də özlərinə xas olan tərzdə xain, heç bir məntiqə, haqqa, ədalətə sığışmayan yalnış əməllərini davam etdirirlər. Bu kimi fəaliyyətlərin ən utancverici və rüsvayedici nümunəsi isə bir neçə gün öncə, noyabrın 25-də Fransa senatı tərəfindən qondarma “Dağlıq Qarabağ respublikası” haqqında qərəzli qətnamənin qəbulu və dekabrın 3-də senatdan sonra Fransa Parlamentinin digər palatası olan Milli Assambleyada qondarma “Dağlıq Qarabağ”ın müstəqilliyinin təcili tanınması zərurəti ilə bağlı qərar qəbul etməsi oldu.

Bu addımlar və qərarlardan öncə də, Azərbaycanın hərb meydanında təkbaşına mübarizə apardığı 44 günlük şanlı zəfəri dövründə Minsk qrupunun həmsədr ölkələrindən Rusiya Federasiyasının və ABŞ-ın nisbi neytrallığı, balanslı yanaşması və münaqişənin diplomatik həlli üçün səyləri fonunda Fransa dövlətinin qərəzli mövqeyi, məsələyə açıq-aşkar ermənipərəst yanaşması və münaqişənin həllindən daha çox tərəflər arasında ciddi mübahisə və münaqişə mövzularının alovlandırılmasına səbəb olan təxribatçı bəyanatları Azərbaycan cəmiyyətində haqlı narazılığa səbəb olmuşdur. Münaqişənin həllində iştirak edən həmsədr ölkə kimi Fransa bitərəf, ədalətli mövqe tutmaq əvəzinə işğalçı Ermənistanı dəstəkləyən və anti-Türk, anti-Azərbaycan mövqe nümayiş etdirirdi. Noyabrın 25-də Fransa senatı tərəfindən sözdə “Dağlıq Qarabağ”dakı qondarma, separatçı, xunta rejiminin tanınmasına çağırış edən, heç bir sağlam məntiqə sığmayan absurd qətnamənin qəbulu isə bu ölkənin ermənipərəst mövqeyinin əsl simasını açıb göstərdi.

Etiraf edək ki, sadəcə kağız parçası olan və heç bir əhəmiyyət kəsb etməyən bu qərəzli qətnamənin qəbulu bizim üçün sürpriz olmadı. Çünki, Fransa hökumətinin, xüsusilə Makron hakimiyyəti dövründəki ermənipərəst mövqeyi beynəlxalq diplomatiyaya, xalqların birgəyaşayış, birlik, həmrəylik, multikulturalizm, dini dözümlülük, mədəniyyətlər və dinlərarası dialoq, əməkdaşlıq və birgə inkişaf dəyərlərinə qətiyyən uyğun olmayan nümayişkaranə “hücum” cəhdləri hər kəs tərəfindən görünən, bilinən həqiqətdir. Şübhəsiz ki, bu “faşist” ritorikasını dövlət siyasətinə çevirən hökuməti təmsil edən Makron-Senat tandeminin uğursuz fəaliyyəti, Senatın və Fransa Milli Assambleyasının qondarma qətnaməni dəstəkləməklə nümayiş etdirdiyi siyasi, tarixi, hüquqi savadsızlığı, beynəlxalq hüququ növbəti dəfə gözardı etməsi və erməni lobbisinin əlində oyuncağa çevrilməsi Avropada söz sahibi olan dövlətlərdən biri kimi Fransa üçün növbəti utanc nümunəsi yaradaraq dövlətin nüfuzuna, beynəlxalq imicinə ciddi zərbələr vurur.

Bu məqamda bir çox suallar yaranır. Görəsən Fransa dövlətinin bu məsələdə rəsmi mövqeyi necə olacaq? Niyə Avropanın güc mərkəzlərindən biri olan Fransa işğalçı və aqressiv siyasət yürüdən, regionda sülhə, təhlükəsizliyə, inkişafa təhdid olan Ermənistana havadarlıq edir? Dünya birliyi, o cümlədən Fransa hökuməti tərəfindən tanınan və beynəlxalq hüquq çərçivəsində təsdiqlənən Azərbaycanın tarixi, əzəli ərazisi olan Dağlıq Qarabağda separatçı, kriminal, xunta rejimini dəstəkləməklə Fransa regionda nə kimi məqsədlər güdür? Səbəb nədir ki, Fransa iqtisadi, hərbi gücü, siyasi nüfuzu, müsbət beynəlxalq imici ildən-ilə yüksələn, regionun ciddi siyasi-iqtisadi aktoru olan və dünyada özünü etibarlı tərəfdaş kimi təsdiqləyən, xalqlar, dövlətlər, dinlər, müxtəlif konfessiyalar arasında konstruktiv, tolerant, multikultural və mədəniyyətlərarası dialoqu dəstəkləyən, bu münasibətlərə hörmətlə yanaşan müstəqil, demokratik Azərbaycanı deyil, rəzalət içində olan və illərdir ki, dövlət siyasətini yalanlar, tarixi faktların saxtalaşdırılması, faşizm ideologiyası və terrorizm üzərində quran işğalçı Ermənistanı dəstəkləyir? Aşkar ermənipərəst mövqe nümayiş etdirən Fransa görəsən regionda Azərbaycan kimi tərəfdaşı itirmək və bu qərəzli münasibət qarşılığında Azərbaycandan gözlənilən adekvat, kəskin reaksiya riskini nəzərə alırmı?

Suallar çoxdur, təhlil olunacaq məqamlar da çoxdur. Məlum olan budur ki, 10 noyabr 2020-ci il tarixində imzalanan üçtərəfli Bəyanatla münaqişə tərəfləri arasında birmənalı sülh əldə olundu. Bu sülh, ilk növbədə, münaqişə tərəflərini qane edir. Lakin nə qədər təəccüblü görünsə də, tədricən aydın olur ki, regionumuzda əldə olunan sülhdən narazı qalan dördüncü tərəflər meydana çıxır. Bu tərəflərdən biri də xüsusilə Makron hakimiyyəti dövründə türk-müsəlman dünyasına aşkar qərəzli münasibət nümayiş etdirən Fransadır. Bəzi məqamların aydınlaşması üçün Fransanın ənənəvi olaraq ermənipərəst mövqe nümayiş etdirməsinin fərqli aspektlərini bir daha nəzərdən keçirməkdə fayda vardır.

İlk növbədə, qeyd olunmalıdır ki, hazırda, son məlumatlara əsasən Fransada 600 minə yaxın erməni əsilli Fransa vətəndaşı yaşayır və Fransa hökumətinin, senatının qərəzli mövqeyi əsasən daxili auditoriyaya hesablanmış addım olmaqla böyük bir ehtimalla bu kütlənin dəstəyinə güvənmək, seçkilərdə erməni lobbisinin səsini qazanmaq düşüncəsinin nəticəsidir.

Lakin, unutmaq olmaz ki, bəzən həddən artıq siyasi emosionallıq müasir XXI əsr diplomatiyası ilə heç cür uzlaşmayaraq, ölkələrarası qarşılıqlı siyasi, iqtisadi, mədəni və s. münasibətlərə və əməkdaşlığa gərəksiz, ciddi zərbələr vura bilir. Qeyd olunmalıdır ki, Azərbaycan ilə Fransa arasında illərlə möhkəmlənmiş iqtisadi əlaqələr mövcuddur. Son statistik məlumatlara əsasən, Fransanın 59 şirkəti Azərbaycanda fəaliyyət göstərir. Fransa şirkətləri enerji (Total), nəqliyyat (Alstom, Thales, İveco, Systra), ətraf mühit (Suez CNİM), kənd təsərrüfatı və qida (Lactalis, Danone), mehmanxana işi (ACCOR), bank biznesi (Societe Generale), aviasiya və kosmik (Airbus, Thales) kimi əsas sahələrdə fəaliyyət göstərərək əhəmiyyətli dərəcədə mənfəət əldə edirlər

# Siyasi nüfuzunu itirən Fransa Senatının qətnaməsi adi kağız parçasıdır

və Azərbaycan iqtisadiyyatının diversifikasiyasına da müəyyən töhfə verirlər.

1995-2017-ci illər ərzində fransız şirkətləri tərəfindən ölkəmizə yatırılan sərmayələrin həcmi 2,2 milyard ABŞ dolları təşkil etmişdir. Bu dövrdə Azərbaycanın Fransaya yatırdığı investisiyaların həcmi 224,7 milyon ABŞ dolları məbləğində olmuşdur.

2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsi 787,4 milyon dollar təşkil etmişdir ki, bunun da 250,7 milyon dolları idxalın, 536,6 milyon dolları ixracın payına düşmüşdür. Fransanın tanınmış "Total" şirkəti 1996-cı ildən Azərbaycanda neft kəşfiyyatı layihələrində iştirak etməyə başlamışdır. Şirkət, nəhəng transmilli enerji layihəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin 11 səhmdarından biridir və burada 5% - lik paya malikdir. İlk qaz hasilatının 2021-ci ildə əldə edilməsi nəzərdə tutulan "Abşeron" yatağının işə başlaması "Total"ın Azərbaycandakı fəaliyyətini daha da genişləndirəcək. Hazırda layihənin iştirakçıları SOCAR (50%) və "Total" (50% - operator) şirkətləridir. Müqavilə 2016-cı ildə 30 il müddətinə imzalanıb və s.

İki ölkə arasında bir çox sahələrdə, eləcə də sosial, humanitar, mədəniyyət, təhsil, elm və texnologiya, digər istiqamətlərdə geniş spektrli əməkdaşlıq mövcuddur. Azərbaycan-Fransa arasında xüsusilə də mədəniyyət və təhsil sahəsində bugünədək mühüm birgə layihələr həyata keçirilmişdir. Azərbaycanda 2014-cü ildən Fransa Təhsil Nazirliyinin proqramı əsasında yüzdən çox şagirdə bağçadan bakalavr pilləsinədək təhsil almaq imkanı verən Bakı Fransız Liseyi və 2016-cı ildən Fransa-Azərbaycan Universiteti (UFAZ) fəaliyyət göstərir. Fransız dilinin tədrisi Azərbaycanda ingilis və rus dillərindən sonra üçüncü sırada yer alır. Ümumilikdə 50 minə yaxın şagird və tələbə xarici dil olaraq, fransız dilini öyrənir. Fransanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə Bakı Slavyan Universitetində Viktor Hüqo adına Fransız Dili və Ədəbiyyatı Mərkəzi və Azərbaycan Dillər Universitetində "Fransa Mərkəzi" yaradılmışdır. Təhsil Nazirliyinin "SABAH" layihəsi çərçivəsində Fransa səfirliyinin dəstəyi ilə 2015-ci ildən etibarən fransalı müəllimlər tərəfindən Azərbaycanın 4 ali məktəbində (Azərbaycan Dillər Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti) fransız dili ikinci xarici dil kimi "SABAH" qruplarında tədris edilir. Bundan əlavə, hər il çoxsaylı azərbaycanlı gənclər təhsillərini davam etdirmək üçün Fransanın ali məktəblərinə yollanır. Artıq uzun illərdir ki, Parisin Şərq Dilləri və Sivilizasiyaları İnstitutunda (INALCO) azərbaycan dilinin tədrisi həyata keçirilir. Bu tədris proqramında Fransa, eləcə də digər ölkələrdən olan 120 tələbə Azərbaycan dilini öyrənir. Həmçinin, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzində ölkəmizi, habelə onun tarixi və mədəni irsini fransız ictimaiyyətinə təqdim edən çoxsaylı tədbirlər həyata keçirilir və s.

Azərbaycan-Fransa arasında humanitar, mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlığın inkişafında ölkəmizin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulanmalıdır. Heydər Əliyev Fondunun dünya mədəniyyətinin inciləri hesab olunan tarixi, dini abidələrin qorunması, bərpa olunması və təmiri istiqamətində icra etdiyi nəhəng layihələrdə Fransanın payı olduqca yüksəkdir. Heydər Əliyev Fondu Parisin Luvr muzeyində İslam incəsənətinə həsr olunmuş yeni zalların yaradılmasında iştirak etmiş, məşhur Notr-Dam kilsəsinin təmiri üçün maliyyə yardımı göstərmiş, Strasburq Kafedral kilsəsinin XIV əsrə aid olan beş pəncərəsinin, Versal Sarayının parkındakı "Amazonka"nın və "Qulpları favn başları ilə bəzədilmiş vaza"nın, Fransada X-XII əsrlərə aid 7 kilsənin təmirini həyata keçirmişdir.

Azərbaycan regionda artıq özünü təsdiqləmiş etibarlı beynəlxalq iqtisadi tərəfdaşdır, bir çox transkontinental iqtisadi layihələrin təşəbbüsçüsü və fəal iştirakçı aktorudur.

Azərbaycanla bu dərəcədə inkişaf etmiş iqtisadi, mədəni, siyasi əlaqələri olan Fransa hökuməti yuxarıda qeyd olunan şübhəli siyasi qərarları ilə nəinki Azərbaycan və ya Türkiyə ilə diplomatik və digər çoxşaxəli əlaqələrinə zərər vurur, eyni zamanda beynəlxalq etibarlılığına da ciddi xələl gətirir.

İkincisi, bu qərəzli "qətnamə"nin qəbulu zamanı Fransa senatındakı vəziyyətə baxaq. Qətnaməyə səs verən 336 senatordan 30 nəfər bitərəf qalıb, 305 nəfər "qətnamə"nin leyhinə səs verib və sonradan Makronun partiyasını təmsil edən 7 nəfər səsini geri götürüb. Qeyd edək ki, hakimiyyət senatda cəmi 23 nəfərlə təmsil olunur. Müxalifətin təşəbbüsü ilə səsverməyə çıxarılan və əsasən erməni əsilli vətəndaşların yaşadığı regionları təmsil edən senatorların dəstəklədiyi qətnamə Fransanın erməni lobbisinin əlində oyuncağa çevrilməsinə dəlalət etmirmi?

Üçüncüsü, siyasi tarixin və beynəlxalq hüququn saxtalaşdırılmasına xidmət edən, yalnız erməni diasporunun maraqlarına cavab verən və Fransanın siyasi imicinə, beynəlxalq etibarlılığına xələl yetirən bu qərəzli qətnaməyə səs verən senatorlara sual verən oldumu ki, siz hansı "respublikanı" tanımağı tövsiyə edirsiniz? İşğalçı Ermənistanın özünün tanımağa cürət etmədiyi, münaqişə haqqında Rusiya prezidenti Putinin və Makronun özünün "Dağlıq Qarabağ və ətrafındakı 7 rayon beynəlxalq hüquqa əsasən suveren Azərbaycan Respublikasının ərazisidir" dediyi ərazilərdə separatçıların və terrorçu, kriminal, xunta rejiminin yaratdığı oyuncaq "respublika"nımı tanıyırsınız? Haradadır o qondarma qurum? Ali Baş Komandan İlham Əliyev bu qondarma xunta rejimini də, Azərbaycana sırınan status-kvonu da tarix səhnəsindən əbədi olaraq silib atdı. Artıq ərazi bütövlüyü, dövlət sərhədləri tam bərpa olunmuş suveren Azərbaycan Dövləti var! Müstəqil, güclü Azərbaycanın yenilməz xalqı, məğlubedilməz ordusu və müzəffər Sərkərdəsi, Lideri, əbədi Prezidenti var! Bu siyasi, hüquqi savadsızlığı necə əsaslandırmaq olar ki, qətnamədə "Azərbaycan Silahlı Qüvvələrinin və "onların dəstəkçilərinin" 27 sentyabr tarixindən etibarən işğaldan azad etdiyi torpaqlardan "çıxarılması", "1994-cü ildə müəyyən olunmuş sərhədlərin bərpası" kimi absurd ifadələr səslənir? Bu hansı məntiqə sığır ki, işğal altında olan Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad olunması haqqında BMT-nin qətnamələrinə imza atan, məhz münaqişənin həlli üçün yaradılan ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın senat üzvləri bu dərəcədə qərəzli, qızışdırıcı, təxribat mahiyyətli və münaqişə tərəfləri arasında açıq-aşkar ayrı-seçkilik yaradan bəyanatlarla çıxış etsinlər? Birmənalı şəkildə bildiririk ki, bu saxta və qondarma sənədin heç bir hüquqi əhəmiyyəti yoxdur, Fransa Senatının və Milli Assambleyasının bu simvolik sənədi yalnız siyasi məna kəsb edir, başqa sözlə seçkiqabağı siyasi oyunun bir vasitəsidir.

Burada diqqətçəkən daha bir məqam ondan ibarətdir ki, qəbul olunan "qətnamə"də Azərbaycanın, Türkiyənin, hətta Türkiyənin Cümhurbaşkanı cənab Rəcəp Tayyip Ərdoğanın adı daha çox hallandırılır, nəinki bir dəfə də olsun adı qeyd olunmayan işğalçı Ermənistanın. Aşikardır ki, Türkiyə paranoyası yaşayan erməni diasporasının təzyiqi ilə hazırlanan bu sənəd eyni zamanda Türkiyəyə qarşı narazılıq nümayişidir. Bu dərəcədə anti-Türk, islamofob mövqe tutan, tarixi, hüququ saxtalaşdıran bir ölkə necə münaqişənin həllində rol oynayan Minsk qrupunun həmsədri kimi çıxış edə bilər? Əksinə, Fransanın ötən illərdəki fəaliyyətindən də görünür ki, bu ölkə münaqişənin həlli üçün yox, işğalın əbədiləşməsi üçün əlindən gələni edib, Minsk qrupu üzvü kimi Fransa ötən illərdə heç bir nəticəyəyönəlik addım atmayıb. Əslində, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinə son nöqtəni qoydu, artıq Minsk qrupunun fəaliyyətinə də ehtiyac qalmadı. Lakin istənilən beynəlxalq platformada Fransanın obyektivliyi bundan sonra təbii ki, şübhə altında olacaq və Fransa sırf ermənipərəst mövqeyi ilə ən çox özünə zərər vurmuş olacaq.

İstənilən halda, işğalçının havadarlarının bu kimi çarəsiz cəhdləri Azərbaycanın İkinci Qarabağ müharibəsindəki əsrlərə bərabər parlaq siyasi və diplomatik qələbəsinin kölgəsində sadəcə toz zərrəciyidir. Azərbaycan döyüş meydanında öz sözünü dedi və 44 gün ərzində bütün dünyaya XXI əsrin yeni müharibə modelini təqdim edərək möhtəşəm qələbələr qazandı. Yalnız beynəlxalq hüquqa əsaslanan Azərbaycanın, işğalçı Ermənistanın ardı-arası kəsilməyən növbəti təxribatına qarşı 27 sentyabr tarixli əks-hücumu Böyük Vətən müharibəsinə çevrildi. Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu misilsiz şücaət göstərək işğal altında olan torpaqlarının xeyli hissəsini - 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəklikləri düşmən tapdağından azad etdi. Dekabrın 1-də ərazi bütövlüyünü tam bərpa edən Azərbaycanın bütün torpaqlarında bu gün şanlı Azərbaycan bayrağı dalğalanır. Fransa senatı bu nəticələri görmürmü ki, 10 noyabr tarixində həll olunan münaqişə haqqında 25 noyabr tarixində uydurma bəyanatlar verir, qondarma qətnamə qəbul edir? Düşünürəm ki, səbəb aydındır. Son onilliklərdə ilk dəfədir ki, Şərq-müsəlman dünyası Qərb üzərində qalib gəldi. Qarabağ müharibəsi - Azərbaycanın İkinci Qarabağ savaşında qətiyyətli qalibiyyəti regiondakı güclər nisbətini tamamilə dəyişdi, Türkiyə və Azərbaycan artıq ciddi geosiyasi, iqtisadi gücə çevrilib. Fransa münaqişədəki söz sahibi mövqeyini qərəzli yanaşması və qeyri-adekvat fəaliyyəti ilə itirdi və münaqişə əslində Bakı-Moskva-Ankara formatında həll olundu. Fransanın bu aşkar passivliyi təbii ki, erməni lobbisini hiddətləndirdi və nəticə göz qabağındadır ki, ermənipərəst senatorlar düşünülməmiş addımları ilə yalnız özlərini və təmsil etdikləri dövləti rüsvay etdilər.

Azərbaycan Prezidenti cənab İlham Əliyev dəfələrlə müxtəlif beynəlxalq platformalarda bütün dünya ictimaiyyətini, beynəlxalq təşkilatları, BMT-ni, ATƏT-i, Minsk qrupunun həmsədr ölkələrini münaqişənin əsl mahiyyəti, Azərbaycanın münaqişənin həlli ilə bağlı prinsipial və konstruktiv mövqeyi haqqında məlumatlandırıb, Ermənistanın işğalçılıq siyasəti, Azərbaycan ərazisində yeni torpaqların işğal olunması, etnik təmizləmə, qırğınlar törətmək kimi faşist əməlləri haqqında xəbərdar edib. Ermənistan isə beynəlxalq hüququn tələblərinə məhəl qoymadan işğalçılıq siyasətini davam etdirirdi, münaqişənin hərb yolu ilə həllinin mümkünsüzlüyü haqqında təxribatla məşğul idi. İşğalçı Ermənistanın və onun havadarlarının nəzərə almadığı məqam isə bundan ibarət idi ki, müasir Azərbaycan müstəqil siyasət yürüdən və cəsarətli, müdrik, xalqının mənafelərini hər şeydən üstün tutan iradəli Lideri olan, hərbi, siyasi, iqtisadi qüdrəti ilə seçilən dövlətdir. Azərbaycan 44 günlük müharibə zamanı bütün erməni miflərini darmadağın etdi, erməni yalanlarını ifşa etdi, işğalçının faşist, qatil, oğru və qəsbkar simasını dünyaya nümayiş etdirdi. İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının milli qürurunu, qələbə əzmini, özünəinamını yüksəltdi və Azərbaycan bir daha qalib dövlət və məğrur xalq kimi özünü təsdiqləməyə nail oldu. Xalqımız Prezident, Ali Baş Komandanımızın ətrafında bir yumruq kimi birləşdi. Ölkəmizdəki Xalq-İqtidar-Ordu birliyi sözün əsl mənasında "dəmir yumruğa" çevrildi və işğalçının belini qırdı. İşğaldan azad olunan torpaqlarımızın hər guşəsində üçrəngli Dövlət bayrağımız dalğalanır, müqəddəs Azan oxunur, namazlar qılınır, Himnimiz səslənir. Azərbaycan xalqı müzəffər Prezidentimizin rəhbərliyi ilə mənfur düşməndən təmizlənmiş bütün torpaqlarımızı cənnət məkanına, beynəlxalq turizm mərkəzlərinə çevirəcək, o regionların iqtisadi potensialından maksimum istifadə edəcək və şübhəsiz ki, ərazi bütövlüyü bərpa olunmuş Azərbaycan torpaqlarının iqtisadi potensialı artıq bütün gücü ilə xalqımızın rifahı, yüksəlişi, tərəqqisinə xidmət edəcəkdir.

Əlbəttə ki, Azərbaycana yenə beynəlxalq siyasi təzyiqlər istisna deyildir. Lakin, unutmayaq ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin müzəffər Ali Baş Komandanı xalqımızın bəlkə də ən mürəkkəb, taleyüklü 44 günlük Zəfər yürüşü müddətində bütün beynəlxalq təzyiqlərə mətanətlə sinə gəldi, erməni lobbisinin illərlə formalaşdırdığı mifləri, "dəstək güclərini" darmadağın etdi, Azərbaycana hər arenada edilən bütün hücumları qətiyyətlə dəf etdi. Bütün xalqımız əmindir ki, Azərbaycanın müstəqilliyini qoruyan, möhkəmləndirən, əbədi edən müzəffər sərkərdəmiz, Prezidentimiz nəyi, nə zaman və necə edəcəyini gözəl bilir. Cənab İlham Əliyev Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirən dövlətlərin, hökumət nümayəndələrinin, hətta mətbuat, KİV təmsilçilərinin layiqli cavabını həmişə verib və şübhəsiz ki, Fransa Senatının bu qondarma qətnaməsinin, eləcə də Fransa Milli Assambleyasının düşünülməmiş qərarının bu ölkə üçün ciddi siyasi nəticələri olacaq. Cəmiyyətimizdəki emosional reaksiyalar, Fransaya qarşı siyasi, iqtisadi tədbirlər haqqında bəyanatlar əslində başa düşülən olsa da, rasional, təmkinli, səbrli yanaşma bütün situasiyalarda ən düzgün seçimdir. Fransa hökumətinin rəsmiləri Senatın bu qondarma qətnaməsinin hüquqi əhəmiyyəti olmadığını təsdiq edib və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha qeyd edib. Sağlam məntiq deyir ki, Milli Assambleyanın 3 dekabr tarixli qərarının da aqibəti eyni olacaq və bu qərar da öncəkilər kimi sadəcə növbəti bir rüsvayçılıq və tarixi, hüquqi saxtakarlıq nümunəsi kimi kağız üzərində qalacaq.

Azərbaycan Vətən müharibəsində ərazi bütövlüyünü bərpa etdi və indi Azərbaycan üçün tamamilə yeni, möhtəşəm, inkişaf dövrü başlayır. Artıq böyük-kiçikliyindən asılı olmayaraq bütün dövlətlər Azərbaycanı iqtisadi, siyasi, hərbi güc kimi tanıyır, qəbul edir. Azərbaycan erməni faşizmi, onların uydurmaları, Azərbaycana qarşı ərazi iddiaları, yalanları üzərində qətiyyətli qələbə qazandı. Azərbaycan xalqı bu möhtəşəm hərbi-diplomatik qələbənin memarı, müzəffər Ali Baş Komandanımız, Prezidentimiz İlham Əliyev ətrafında sıx birləşib və ölkəmizdəki Xalq-İqtidar-Ordu birliyi əbədidir, sarsılmazdır. Dünya artıq təkqütblü deyil, ikiqütblü də deyil, çoxqütblüdür və Rəcəp Tayyib Ərdoğanın dediyi kimi "Dünya 5-dən (ABŞ, Rusiya, İngiltərə, Çin və Fransa - Ş.H) böyükdür". XXI əsr Türk əsridir və Ali Baş Komandanımız İlham Əliyev Türk millətinin, Azərbaycan xalqının gücünü, milli ruhunu, qələbə əzmini, "dəmir yumruğu"nu bütün dünyaya nümayiş etdirdi. Regionumuzda, bütün coğrafiyamızda, hətta dünyada artıq hər kəs Azərbaycanla münasibətlərində bu "dəmir yumruğ"u nəzərə alacaq. Biz Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevlə, rəşadətli Ordumuzla qürur duyuruq.

# Atılan bütün addımlar ictimai gözləntiləri doğrultmağa yönəlib”

***“Prezident İlham Əliyevin iradəsi, tapşırıq və sərəncamları həmişə ona xidmət edib ki, Azərbaycan inkişaf yolunda dayanmadan, sürətlə irəliləsin; vətəndaşın sosial yükünün altına girmək, onu rahat, firəvan həyata qovuşdurmaq iqtisadi güc nəticəsində tam real olsun! Bu dövlət siyasətinin mərkəzində şəhid ailələri, müharibə əlilləri, veteranlar, hərbi qulluqçuların sosial müdafiəsinin təmin edilməsi, onların rifah halının yüksəldilməsi və problemlərinin həlli xüsusi yerdə dayanıb”. Bunu SİA-ya Əməkdar jurnalist Elman Babayev deyib.***

Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsində möhtəşəm qələbədən sonra cəmiyyət qeyd olunan kateqoriyaya ünvanlanan siyasətdə yeniliklərin olmasını gözləyirdi: “Haqlı olaraq canını, qanını Vətən yolunda fəda etmiş insanların, onların ailələrinin sosial müdafiəsinin daha da gücləndirilməsi umulurdu. Prezident İlham Əliyevin müharibədən sonra imzaladığı ilk fərmanlardan biri məhz bu istiqamətdə oldu. Dövlət başçısının Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (“YAŞAT” Fondu) yaradılması əhalinin sosial təminatının və rifah halının daha da yaxşılaşdırılması siyasətinə sadiqliyin, ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailə üzvlərinə xüsusi həssas münasibətin növbəti əyani təzahürüdür.

Vurğulamaq vacibdir ki, Vətən müharibəsindən sonra vətəndaş cəmiyyəti, biznes dairələri, ölkə vətəndaşları, xaricdə yaşayan soydaşlarımız da bu kateqoriyadan olan insanlara mümkün dəstəyi göstərmək üçün hər cür alqışa layiq fəaliyyət ortaya qoyurlar. Xeyirxahlıq, humanizm prinsiplərinə həmişə sadiq olan xalqımız təmənnasız yardım ənənələrini davam etdirir, şəhid ailələrinin, hərbi əməliyyat iştirakçılarının zəruri ehtiyaclarının təmin edilməsinə xüsusi həssaslıqla yanaşır və hər bir vətəndaş bu məsələyə öz dəyərli töhfəsini verməyə çalışır. Bu reallıq əsas götürülərək, şəhid ailələrinin, hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması, bunun üçün müvafiq platformanın yaradılması məqsədilə Prezident İlham Əliyev “YAŞAT” Fondunun yaradılması haqqında Fərman imzalayıb.



Fond aşağıdakı şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi (maliyyə yardımlarının göstərilməsi və digər dəstək tədbirlərinin həyata keçirilməsi) üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılması məqsədilə yaradılır:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailələrinin üzvlərinə;

- İşğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, habelə hərbi əməliyyatlar bitdikdən sonra onun nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş dövlət orqanlarının (qurumlarının) əməkdaşlarına və ya həlak olmuş əməkdaşların ailə üzvlərinə;

Fondun vəsaiti Azərbaycan Respublikası vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr), habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır. Fondun vəsaitinin sərəncamçısı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti Azərbaycan Respublikası Prezidentinin yaratdığı və tanınmış ictimaiyyət nümayəndələrinin daxil olduğu Himayəçilik Şurası həyata keçirir.

Beləliklə, Fondun fəaliyyətində şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi, həmçinin fondun vəsaitinin formalaşması və idarə olunmasına nəzarət məqsədilə bütün mümkün tədbirlər görülüb. Bu işin “ASAN Xidmət”ə verilməsi isə təsadüfi deyil. Çünki bu qurum rellıqda və cəmiyyətin gözündə korrupsiyaya bulaşmamış dövlət təşkilatı kimi özünü tam doğruldub.

Fondun vəsaitləri şəhid ailəsi status alana və ya əlilliyi müəyyən edilənədək götürülən istehlak kreditlərinin və digər borc öhdəliklərinin qarşılanmasına, müalicə və psixoloji dəstək xərclərinin, təhsillə bağlı xərclərin ödənilməsinə, məişət şəraitinin yaxşılaşdırılmasına və digər istiqamətlərə yönəldiləcək.

Bu, Azərbaycan dövlətinin şəhid ailələri, müharibə əlilləri və digər bu kateqoriyadan olan şəxslərə maliyyə dəstəyinin göstərilməsi, mənzillər, minik avtomobilləri ilə təminatı, müalicəsi, sosial durumunun yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi ardıcıl tədbirlərə əlavə töhfə verəcək.

Dövlətin bu kateqoriyadan olan şəxslərə hədəflənən sosial təminat sistemi nədən ibarətdir?

- Şəhidin vərəsələrinə sığorta ödənişi (11 min manat) verilir;
- Müharibə əlillərinə sığorta ödənişi (I dərəcə əlilliyi olan şəxslərə 8800 manat, II dərəcə əlilliyi olan şəxslərə 6600 manat, III dərəcə əlilliyi olan şəxslərə 4400 manat) ödənilir;
- Əmək stajından asılı olaraq pensiya və ya müavinət ödənilir (orta məbləğ 400 manat);
- Onların əmək pensiyasının sığorta hissəsinə əlavə (55-110 manat) ödənilir;
- Prezidentin aylıq təqaüdü (210-300) ödənilir;
- Şəhid ailələrinin üzvlərinin və müharibə əlillərinin övladları və özləri təhsil haqqı ödəməkdən azad olunur;
- Protez və reabilitasiya vasitələri ilə pulsuz təmin olunurlar;
- Sanator-kurort müalicəsi üçün ildə 1 dəfə pulsuz göndərişlərlə təmin olunurlar;
- Aktiv məşğulluq proqramlarında (özünüməşğulluq, ödənişli ictimai işlər və s.) onlara üstünlük verilir;
- Onların məşğulluğunun təmin edilməsi üçün bütün işəgötürənlər üçün (dövlət və özəl) məcburi kvota müəyyən edilib;
- Şəhid ailəsi üzvləri və müharibə əlilləri üçün vergi, əmək qanunvericiliyində və s. üçün bir sıra güzəştlər nəzərdə tutulub;
- İndiyədək bu kateqoriyadan olan şəxslərə dövlət xətti ilə 9000-ə yaxın mənzil və fərdi ev, habelə 7000-dən çox avtomobil verilib.

Şəhid ailələri və müharibə əlilləri mənzil və avtomobil təminatı, habelə birdəfəlik sığorta ödənişi ilə yanaşı, orta hesabla aylıq əsasda 700 manat sosial ödəniş alırlar. Sözsüz ki, bu ödənişlərin daha da təkmilləşdirilməsi, onların sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində mütəmadi iş aparılır və aparılacaq.

Yeni fərmanla bir daha təsdiq edildi ki, dövlətin həyata keçirdiyi ardıcıl sosial siyasət daha da gücləndiriləcək. Azərbaycan dövləti hər bir vətəndaşın, xüsusilə imtiyazlı təbəqənin, dövlət və xalq qarşısında xidmətləri olan şəxslərin sosial məsələlərinin həllini prioritet vəzifə hesab edir.

Yaxşı yadımızdadır ki, İlham Əliyev axırıncı prezident seçkisinin andiçmə mərasimindən dərhal sonra, ilk olaraq sosial sahəyə aid fərman imzalamışdı; bu fərman şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi tədbirlərini özündə ehtiva edirdi və inam yaradırdı ki, ölkə rəhbəri qarşıdakı 7 ildə sosial siyasəti prioritet istiqamət seçəcək, aztəminatlı ailələrdən tutmuş, əlillər, təqaüdçülər və başqa kateqoriyanın problemlərinin həlli bu xəttin tərkib hissəsi kimi hər daim diqqətdə olacaq.

Atılan bütün addımlar, verilən bütün qərarlar ictimai gözləntiləri doğrultmağa yönəlib və geri çəkilən bir niyyət ortada yoxdur. Çünki sosial siyasət təkcə əhalinin güzəranına hədəflənmiş siyasət deyil, eyni zamanda, ölkəni gücləndirməyə, dövləti hər daim dik vəziyyətdə, etibarlı saxlamağa xidmət edir.

Prezident İlham Əliyevin Vətən yolunda xidmətləri olmuş şəxslərin, onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində nümayiş etdirdiyi həssaslıq bütövlükdə cəmiyyət üçün, aidiyyatı qurumlar üçün gözəl bir nümunədir.

Vətəni yaşadanları yaşatmaq hamımızın borcudur!”.

***Ceyhun Rasimoğlu***

# Düşmənlə aparılan informasiya müharibəsi hələ bitməyib”



***“Artıq uzun müddətdir ki, sosial şəbəkələrdə dövlət və milli maraqlara zidd paylaşımların qarşısının alınması, milli təhlükəsizliyimizə təhdid yarada biləcək fikirlərin səsləndirilməsi ilə bağlı bu sahədə ciddi nizamlama tədbirlərinə ehtiyacın olduğuna dair müzakirələr aparılır”. Bunu “Səs” qəzetinə açıqlamasında “Həftə İçi” qəzetinin baş redaktoru Sevinc Seyidova deyib.***

Onun sözlərinə görə, 44 günlük Vətən Müharibəsi dövründə milli təhlükəsizlik amili ilə bağlı internetə və sosial şəbəkələrə tətbiq edilən məhdudiyyətlərin nə dərəcədə effektiv təsir gücünün olduğunu gördük: “Lakin bu tədbirlər sırf hərbi vəziyyət rejiminin tələblərinə uyğun idi. İndi isə artıq müharibə başa çatıb və yenidən normal həyat tərzimizə qayıtmışıq. Lakin bu o anlama gəlməməlidir ki, biz sosial şəbəkələrdə milli maraqlarımızı təhdid edən videolar, statuslar və s. paylaşa bilərik. Əksinə, indi dövlətimiz və xalqımız üçün daha həssas bir dövr başlayıb. Hərb meydanında əldə edilən qələbənin diplomatik və informasiya müstəvisində də möhkəmləndirilməsinə ciddi ehtiyac var. Ona görə də, məğlub düşmənlə aparılan informasiya müharibəsi hələ bitməyib. Əksinə daha da güclənib”.

S.Seyidova bildirib ki, milli maraqlarımıza təhdid yarada biləcək istənilən paylaşımlardan Azərbaycana qarşı düşmənlərimiz çox məharətlə istifadə etməyi bacarırlar: “Ona görə də, indiki məqamda sosial şəbəkələr üzərində tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsinə daha ciddi ehtiyac yaranıb. Bu sahədə qanunvericilik təkmilləşdirilməli, söz və ifadə azadlığının çərçivələrinə zərər verilmədən sosial şəbəkələrlə bağlı qanunlara yeni müddəalar daxil edilməlidir. Buraya inzibati cəza tədbirləri, ictimai qınaq, maarifləndirmə və s. amillər daxildir”.

***Gülyana***

# Ömər Çelik: Fransa parlamentinin Dağlıq Qarabağla bağlı qərarı təsirsizdir

***Fransa parlamentinin Dağlıq Qarabağla bağlı qərarı hüquqi baxımdan təsirsizdir. Fransa bununla tərəfsiz olduğunu itirdi. AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömər Çelik AKP-nin İdarə Heyətinin iclasından sonra keçirdiyi mətbuat konfransında deyib.***




Azərbaycanın işğal altındakı torpaqlarını geri aldığını və Fransanın fəaliyyətinin hüquq çərçivəsində olmasının vacibliyini ifadə edən AKP sözçüsü söyləyib: ”Fransadan bu günə qədər Ermənistanın işğal altındakı bölgələrdən çəkilməsinə dair açıqlama eşitmədik”.

Fransa prezidentinin bəzi dövlətləri Türkiyəyə qarşı qaldırmağa çalışdığını diqqətə çatdıran Ədalət və İnkişaf Partiyasının rəsmisi deyib ki, belə radikal yanaşma tarixi ənənələri olan dövlətə yaraşan deyil.

# Vüqar Rəhimzadə: Qələbə paradı tariximizə qızıl hərflərlə yazılacaq

***"44 günlük Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu 44 gündə 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımızı azad etdi, ərazi bütövlüyümüz təmin olundu, erməni işğalına son qoyuldu. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı əsasında Qarabağın ürəyi, tacı kimi dəyərləndirilən Şuşanın işğaldan azad olunduğu tarix- 8 noyabr Zəfər Günü kimi təsis olundu. Həmin gün Azərbaycanın çoxəsrlik tarixinin ən parlaq səhifəsi kimi yaddaşlara yazıldı və heç zaman unudulmayacaq."***



Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, artıq qalib Azərbaycanın müəzəffər ordusu Qələbə paradına hazırlaşır: "Bu paradın özünəməxsus özəlliyi, digər paradlardan fərqi vardır. Dövlətimizin başçısı İlham Əliyevin 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi paradda söylədiyi bu fikirləri xatırlatmaq istərdik: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq."

"Gözlədiyimiz həmin gün gəldi" söyləyən Vüqar Rəhimzadə qeyd edib ki, bu gün böyük qürur hissi ilə işğaldan azad edilən bütün torpaqlarımızda Azərbaycanın üçrəngli bayrağının dalğalandığını bəyan edirik: "Qələbəmiz Azərbaycan Ordusunun gücünü, qüdrətini bir daha dünyaya nümayiş etdirdi. Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşdığını bir daha təsdiqlədi. Baxmayaraq ki, düşmən ötən 30 ildə işğal altında saxladığı ərazilərimizdə güclü istehkamlar qurmuşdu. Düşünürdülər ki, bu istehkamları yarıb keçmək mümkün olmayacaq. Dövlətimizin başçısı İlham Əliyev çıxışlarında da bu məqamı xüsusi vurğulayır ki, qurulan istehkamlar bir daha təsdiqləyirdi ki, ermənilər torpaqlarımızı danışıqlar yolu ilə geri qaytarmaq fikrində deyildilər. Biz tarixi Qələbə qazandıq. Bu Qələbənin sevincini böyük qürur hissi ilə yaşayırıq. Dekabrın 10-da keçiriləcək Qələbə paradı da bu sevincin tərkib hissəsidir. Artıq Qələbə paradına hazırlıq işləri görülür. Qeyd etdiyimiz kimi, bu parad əvvəlkilərdən tamamilə fərqlənəcək. Əgər əvvəlki hərbi paradlarda Azərbaycan Ordusunun hansı imkanlara malik olduğu, işğal altında olan torpaqlarımızı azad etmək gücü, qüdrəti nümayiş etdirilirdisə, dekabrın 10-da qalib ölkənin müzəffər ordusu Azadlıq meydanında qürurla addımlayacaq. Azərbaycan əsgəri böyük ruh yüksəkliyi ilə bu parada hazırlaşır."

Baş redaktor bildirib ki, Qələbə paradı tariximizə qızıl hərflərlə yazılacaq. Düşmən 30 ildə işğal altında saxladığı torpaqlarımızda istehkamlar quranda, heç bir vəsait xərcləmədən havadarları tərəfindən silahlanaraq bu ərazilərdə güclü hərbi sistem formalaşdıranda düşünürdü ki, Azərbaycan Ordusu bunları yarıb keçə bilməyəcək. Bu, onların xəyalları, yanlış düşüncələri idi. Azərbaycan Ordusu 29 illik müstəqillik tariximizdə, xüsusilə son 27 ildə düşünülmüş və məqsədyönlü siyasət nəticəsində öz qüdrətini, maddi-texniki bazasını daha da möhkəmləndirmiş, dünya standartlarına cavab verən şəkildə formalaşmışdır. Ölkəmizin ev sahibliyi etdiyi ənənəvi Beynəlxalq Müdafiə sərgiləri də bu sahədə malik olduğumuz imkanların təqdimatında əhəmiyyətli rol oynayırdı. Ən əsası Azərbaycan Ordusunun döyüş ruhu, bir qarış torpağımızı belə düşmənə verməmək üçün göstərdiyi fədakarlıq, illərdir Ali Baş Komandandan hücum əmrini gözləməsi bugünkü Qələbəmizi şərtləndirən əsas amillər sırasındadır. Ümumilikdə qeyd etsək Qələbəmizin formulu belədir: Xalq-Prezident-ordu."

"Dövlətimizin qətiyyəti, ölkə Prezdenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarix yazan rəşadətli ordumuz düşməni diz çökdürdü, şanlı tarix yazdı" söyləyən baş redaktor bildirib ki, Qələbə paradında 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, hərbi gəmi və katerlərin nümayişi ilə yanaşı, Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin də nümayişinin nəzərdə tutulması böyük qürurverici hadisədir. İşğalçı Ermənistan və ona havadarlıq edən dövlətlər Azərbaycan Ordusunun gücünün, qüdrətinin şahidi oldu. 30 ildə dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların edə bilmədiklərini Azərbaycan Ordusu 44 gündə etdi. Eşq olsun Müzəffər Ali Baş Komandana! Eşq olsun rəşadətli Azərbaycan Ordusuna! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

# Qarabağ qazısı: Qazanılan qələbə qəlbimizi iftixar hissi ilə doldurub



Natiq Əsgərov Yevlax rayonunda doğulub. Ötən əsrin 90-cı illərində Füzuli rayonunda gedən döyüşlərdə iştirak edərək yaralanıb. Hazırda ikinci qrup əlildir. Dekabrın 8-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müharibə əlili kimi ona "Xəzər" markalı avtomobil təqdim edilib.

"Müharibə əlillərinə göstərilən bu diqqət və qayğıya görə Prezident, Ali Baş Komandan İlham Əliyevə çox böyük minnətdarlıq edirəm. Onun rəhbərliyi ilə Azərbaycan Milli Ordusu sentyabrın 27-dən noyabrın 10-dək çox böyük hünər və rəşadət nümunəsi göstərdi. Mən Birinci Qarabağ müharibəsinin iştirakçısıyam. O vaxt erməni quldur birləşmələrinə layiqli cavab vermək, onları yerində oturtmaq, torpaqlarımızı onların işğalından xilas etmək bizə nəsib olmadı. Çox sevincliyəm ki, o vaxt bizim görə bilmədiyimiz iş bugünkü nəsil şərəflə icra edərək yeni tarix yazdı. Həm də ona görə sevincliyəm ki, qalib ordumuzun əsgərləri arasında mənim oğlum da var. O, indi də döyüş bölgəsində Vətən qarşısındakı xidmətini davam etdirir. Belə qəhrəman oğulları, belə güclü ordusu, belə Sərkərdəsi olan xalqla fəxr etməyə dəyər",- deyə Natiq Əsgərov AZƏRTAC-ın müxbiri ilə söhbətində deyib.

Qarabağ qazisi ona göstərilən qayğıdan razılıq edərək deyib: "Müharibə veteranı kimi hər cür qayğı ilə əhatə olunmuşam, bu gün də "Xəzər" avtomobilini açarlarını aldım. Milli Ordumuzun Qarabağı erməni qəsbkarlarından təmizləməsi məndə çox böyük ruh yüksəkliyi yaradıb. İkinci Qarabağ müharibəsində xalqımızın qazandığı möhtəşəm qələbə qəlbimizi iftixar hissi ilə doldurub. Həmin qələbənin qazanılmasında əməyi olan bütün döyüşçülərimizin qarşısında baş əyərək "sizlərə halal olsun" deyirəm".

# Ermənistan demoqrafik fəlakətlə üz-üzədir



Son günlər Ermənistan əhalisinin azalması, iqtisadiyyatın çökməsi və qalan əhalinin çox acınacaqlı vəziyyətə düşməsi barədə məlumatlar yayılır. Bildirilir ki, cari il yanvarın 1-nə olan məlumata görə, Ermənistanın daimi əhalisinin sayı 2 milyon 959,7 min nəfər təşkil edib. AZƏRTAC xəbər verir ki, bu barədə məlumatı Ermənistanın Milli Statistika Xidməti yayıb.

Bildirilir ki, 2019-cu ilin əvvəli ilə müqayisədə ölkə əhalisinin sayı 5,6 min nəfər, yaxud 0,2 faiz azalıb. Qeyd olunub ki, Ermənistanda əhalinin sayının cari qeydiyyatı, əhalinin təbii artımı və miqrasiyası barədə məlumatlar 2011-ci ildə keçirilmiş son siyahıyaalmanın nəticələri əsas götürülərək aparılıb.

Mütəxəssislər və ekspertlər hesab edirlər ki, Ermənistan əhalisinin sayı növbəti illərdə daha da azalacaq. Buna səbəb ölkədə yoxsulluğun səviyyəsinin artması, ölkə iqtisadiyyatının çökməsi kimi dəlillər göstərilir. Bildirilir ki, hazırda Ermənistanın xarici dövlət borcu ümumi daxili məhsulun 60 faizindən çoxdur. Bu isə ölkə iqtisadiyyatının tənəzzülü deməkdir.

Qeyd olunur ki, Azərbaycanla müharibədə Ermənistana bir neçə milyard dollar həcmində ziyan dəyib və bu da ölkə iqtisadiyyatını daha da çökdürüb. İndi hökumət əhalinin sosial vəziyyətini düzəltmək və sosial müdafiə layihələrini həyata keçirmək iqtidarında deyil. Ölkə əhalisi vəziyyətdən çıxış yolunu yenə də ölkədən qaçmaqda, başqa dövlətlərdə iş axtarmaqda görür.

Ermənistan mətbuatı yazır ki, son iki ildə minlərlə sakin vətəndaşlıq almaq üçün xarici ölkələrə üz tutub. Müharibədəki məğlubiyyət və cəmiyyətdə yaranmış xaos, qorxu insanların xaricə axınını daha da artırıb.

Bəzi məlumatlara görə, təkcə son günlər ərzində dünyada və Ermənistanda hökm sürən koronavirus pandemiyasına baxmayaraq, yüzlərlə insan artıq Ermənistanı tərk edib. Bu axının 2021-ci illərdə daha atacağı və 100 mini keçəcəyi gözlənilir.

Ekspertlərin fikrincə, Ermənistanda demoqrafik böhran daha da dərinləşəcək. Hökumət isə bu faktları əhalidən gizlətməklə, yalan vədlər verməklə, ordu quruculuğu və müharibə təhlükəsi ilə insanların fikirlərini yayındırmağa çalışır.

# Yaqut Qarayeva: Heç bir halda həkim məsləhəti olmadan Deksametozon və steroid preparatı qəbul etmək olmaz!

***Bu gün müalicə işi ilə məşğul olan həkimləri narahat edən məsələ xəstələrin stasionarlara ağırlaşmış vəziyyətdə daxil olmasıdır. Ən çox narahatlıq doğuran ev şəraitində aparılan bəzi müalicələrdir. Əhali arasında sosial şəbəkələr vasitəsilə çoxlu sayda reseptlər dolaşır.***

AZƏRTAC xəbər verir ki, bunu dekabrın 8-də Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva söyləyib.

Şöbə müdiri deyib: "Ev şəraitində hansı dərman preparatları qəbul edilə bilər? Bu, vitamin preparatları və bəzi qandurulaşdırıcı dərmanlardır. Xroniki xəstəliyi olanlar həmin preparatları qəbul edə bilərlər. Lakin digər vətəndaşlar qandurulaşdırıcı preparatları yalnız həkim məsləhəti ilə qəbul edilməlidir və miqdarı da həkim tərəfindən təyin olunmalıdır, çünki bu, ciddi fəsadlara səbəb ola bilər. Bundan əlavə yataq rejimi və bol maye qəbulu tövsiyə olunur".




"Hansı preparatlar həkim təyinatı olmadan qəti qəbul edilə bilməz? Bu, hormonal preparatlar və steroidlərdir. Təəssüf ki, Deksametazon bütün ölkədə geniş istifadə olunur və hətta apteklərdə onu vətəndaşlara məsləhət görürlər. Bu, çox ciddi səhvdir və xəstələrin vəziyyətinin evdə fəsadlaşmasına səbəb olur. Heç bir halda həkim məsləhəti olmadan Deksametozon və steroid preparatı qəbul etmək olmaz. Buraya antibiotiklər və antiviral preparatlar daxildir. Özümüzü ən sadə metodlarla - gigiyenaya əməl etmək, maska taxmaq və məsafə saxlamaqla qorumağa çalışaq",- deyə Y. Qarayeva bildirib.

# Fransanın təxribatları cavabsız qalmayacaq

## Paris Azərbaycandakı mövqelərini itirə bilər




Cənubi Qafqazda cərəyan edən hadisələr iki aya yaxındır dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Bu da səbəbsiz deyil. Keçmiş SSRİ-nin süqutundan sonra bu həssas regionda meydana çıxmış ilk münaqişənin - Ermənistan-Azərbaycan münaqişəsinin hərtərəfli tənzimlənməsi üçün şərait yaranmışdır.

Azərbaycan, Rusiya və Ermənistan liderlərinin noyabrın 9-da əldə etdikləri razılaşmaya uyğun olaraq, Azərbaycan Ordusu sentyabrın 27-də başlatdığı əks-hücum əməliyyatını problemin siyasi vasitələrlə həlli naminə dayandırmış, Ermənistan işğal etdiyi torpaqlardan çəkilməyə başlamışdır. Artıq Ağdam və Kəlbəcər rayonları boşaldılmış, gələn ayın 1-dək isə Ermənistan silahlı qüvvələri və qanunsuz məskunlaşmış mülki əhali Laçın rayonundan çıxmalıdır.

Eyni zamanda üçtərəfli razılaşmaya əsasən, bölgədəki iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi, eləcə də Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması nəzərdə tutulur. Artıq bu istiqamətdə də işlər görülür, ardıcıl addımlar atılır.

Belə bir təəssürat yaranır ki, “Dağlıq Qarabağ münaqişəsi” ifadəsi tezliklə işlək olmayacaq və siyasi leksikadan çıxacaq.

Bununla belə, Cənubi Qafqazın, ümumiyyətlə, postsovet məkanının ən qədim münaqişəsinin nizamlanmasını bu və ya digər şəkildə əngəlləməyə çalışan dövlətlər var. Bu istiqamətdə canfəşanlıq edənlərdən biri də Fransadır. Paris münaqişə tərəflərindəndən birinə - təcavüzkar Ermənistana çoxdandır tərəf çıxır. Fransa Ermənistanı özünün “bacı”sı elan edərək münaqişənin dondurulmuş vəziyyətdə saxlanması, başqa sözlə, Azərbaycan ərazisinin 20 faizinin erməni işğalı altında qalması üçün əlindən gələni əsirgəmir. Odur ki, Azərbaycan Silahlı Qüvvələrinin işğalçı Ermənistana qarşı apardığı əks-hücum əməliyyatının nəticələri təcavüzkarın böyük “bacı”sını əməlli-başlı narahat edir.

Təbii ki, Azərbaycan hərbi əməliyyatı öz ərazisində keçirdiyindən və BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsini icra etdiyindən Paris Bakının qarşısını kəsmək üçün elə bir əsaslı bəhanə tapa bilməmişdi. Ona görə də başqa yola əl atmışdı: Fransa Prezidenti Emmanuel Makron çətin vəziyyətə düşmüş “bacı”sını xilas etmək üçün əvvəlcə atəşi dayandırmağa çalışmış, bu baş tutmayanda isə Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdəki xristian dini irsinin gələcəyindən narahatlığını ifadə etməyə başlamışdı. Hərçənd bu “narahatlıq” heç bir çərçivəyə sığmırdı. Belə ki, Azərbaycan multikultural, çoxmilləltli və çoxkonfessiyalı ölkə olaraq bütün dinlərə eyni münasibət sərgiləməklə dünyada başqalarına nümunə kimi özünü təsdiqləmişdir. Ona görə də Fransa siyasi rəhbərliyinin, ilk növbədə Prezident Makronun Azərbaycana qarşı irəli sürdüyü cəfəng iddia özünü doğrultmamış və sabun köpüyü kimi partlamışdır. Başqa bir iddia - guya Azərbaycanın əks-hücum əməliyyatına Türkiyənin köməyi ilə Suriyadan muzdlu döyüşçülər cəlb etməsi də heç bir tənqidə duruş gətirməmişdir. Prezident İlham Əliyev bu iddianı irəli sürənlərdən birindən - Fransa lideri Makrondan dəlil-sübut tələb etmiş, amma indiyədək cavab ala bilməmişdir.

Fransa siyasi dairələrinin ermənipərəstliyi yeni fakt deyil. Bu ölkənin siyasətçiləri xüsusilə müxtəlif səviyyəli seçkilər zamanı imkanlı erməni icmasının cibinə göz dikirlər. Seçkidə səsvermə başa çatan kimi isə erməni seçicilərinə verilmiş vədlər yaddan çıxır və bir də növbəti seçki ərəfəsində yada düşür. Amma belə bir məqamı da nəzərə almaq lazımdır ki, fransız cəmiyyəti islamofobluğu ilə seçilir. Bu baxımdan ölkənin indiki Prezidenti xüsusilə fərqlənir. Ona görə də Parisin müsəlman ölkələrinə, o cümlədən Azərbaycana münasibətindəki qərəzi az qala hər addımda sezmək mümkündür.

Fransanın yerli idarəetmə orqanlarının Azərbaycanın Dağlıq Qarabağ bölgəsində səngərlənmiş erməni separatçı-terrorçuları ilə məhrəm əlaqələri də təzə deyil. İki il əvvəl Farnsanın bir çox bələdiyyələri Dağlıq Qarabağdakı “bələdiyyə”lərlə “dostluq xartiya”ları imzalamışdı. Sirr deyil ki, Qarabağdakı separatçı-terrorçularla belə “dostluq əlaqələri”nin qurulmasında Fransadakı erməni icması və lobbisi həlledici rol oynamışdır. Lakin o vaxt Azərbaycan tərəfi Fransa məhkəmələri vasitəsilə həmin üzdəniraq xartiyaları ləğv etdirməyə nail olmuşdur. Bu yaxınlarda Paris meriyası yenidən Qarabağ ermənilərini yada salmış, separatçı-terrorçu qurumu tanımaq təşəbbüsü irəli sürmüşdür.

Amma bu da hələ hamısı deyil. Xəbər verildiyi kimi, Fransa Senatı hökuməti Dağlıq Qarabağdakı separatçı-terrorçu qurumu tanımağa çağıran qətnamə qəbul etmişdir. Özü də qətnamədə sağlam təfəkkürdən çox-çox uzaq, birtərəfli və həqiqətə uyğun olmayan bir sıra məqamlar, o cümlədən Azərbaycanı bu il sentyabrın 27-dən bəri işğaldan azad etdiyi ərazilərdən geri çəkilmək kimi gülünc çağırış yer almışdır. Belə çıxır ki, Fransa senatorları ermənidən böyük ermənidirlər. Onlar nəzərə almaq istəməmişlər ki, Azərbaycan Ordusunun öz torpaqlarını işğaldan azad etməsinin zəruriliyi beynəlxalq təşkilatların sənədlərində, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrində əksini tapmışdır.

Beləliklə, Fransa siyasi elitası erməni “bacı”nın yedəyində getməyi qərarlaşdırmışdır. Fransız siyasətçilər özlərini ölkədəki imkanlı erməni icmasının və lobbisinin girovu olmağa razılaşmışlar, eləcə də islamofobiya xəstəliyindən qurtulmaqdan boyun qaçırmışlar.

Fransa Senatının məlum qətnaməsi növbəti təxribat olaraq hüquqi qüvvəyə malik olmasa da, siyasi məna kəsb edir. Paris münaqişənin tənzimlənməsində ATƏT-in Minsk qrupunun həmsədri kimi neytral vasitəçi rolu oynamaq əvəzinə, təcavüzkar, işğalçı Ermənistanı dəstəkləməyi davam etdirməkdən çəkinmir. Belə olan halda Fransanın ədalətli vasitəçiliyi sual altına düşür. Özü də Fransa Respublikasının Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar rəsmi mövqeyi dövlətin yüksəksəviyyəli nümayəndələri, o cümlədən ölkə Prezidenti və xarici işlər naziri tərəfindən səsləndirilmişdir. Fransa Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləmiş və bu mövqe istər ikitərəfli çərçivədə, istərsə də Avropa İttifaqı ilə imzalanmış sənədlərdə öz əksini tapmışdır. Sözügedən münaqişənin nizamlanmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə Fransa da səs vermişdir. Fransa Xarici İşlər Nazirliyinin nümayəndəsi Senatda keçirilmiş müzakirələrdə çıxış edərkən dövlətin rəsmi mövqeyini bir daha ifadə etmişdir. Amma nə fayda, senatorlar istədiklərindən əl çəkməmişlər.

Bütün bunlar göstərir ki, Fransa Ermənistan-Azərbaycan münaqişəsinin həllinə münasibətdə sözdə bir, əməldə isə başqa cür hərəkət edir. Amma Paris başa düşməlidir ki, bu davranışla özü-özünü ifşa edir. Bundan sonra heç kim Fransanın həm beynəlxalq vasitəçi, həm də tərəfdaş kimi səmimiliyinə inanmaz.

Fransanın maskası artıq yırtılmışdır. Qaradan o tərəfə rəng yoxdur. Sözü ilə əməli üst-üstə düşməyən bir dövlətlə yol yoldaşı olmağa dəyməz. Müstəqil, suveren dövlətin ərazini parçalamağı özünə rəva bilən, separatçılığı, terrorçuluğu dəstəkləyən bir dövlətlə yalnız başa düşdüyü dildə danışmaq lazımdır. Rəsmi Bakı artıq xəbərdarlıq etmişdir ki, Azərbaycanın ərazi bütövlüyünə qəsd edən, onu parçalamaq niyyətinə düşən hər hansı ölkə lazımi cavabı alacaqdır. Ermənistan kimi saysız-hesabsız müharibə cinayətləri törətmiş dövlətə dəstək verənlərlə Azərbaycan bir sırada dura bilməz.

Paris belə bir siyasi xətt götürübsə, şübhəsiz, onun fəsadları ilə qarşılaşmalı olacaq. Fransa postsovet məkanında, o cümlədən Azərbaycanda yetərli mövqelər qazanmışdır. Bakı Parislə qarşılıqlı münasibətlərə xüsusi əhəmiyyət vermişdir. Təsadüfi deyil ki, hazırda ölkəmizdə 50-dən çox fransız şirkəti fəaliyyət göstərir. Lakin Fransa öz hərəkətləri ilə Azərbaycan iqtisadiyyatında qazandığı yeri itirə bilər. Fransa Azərbaycanla düşmənçiliyi davam etdirsə, məsələn, “Total” şirkəti nefti indiki kimi Xəzər dənizində yox, Sevan gölündə axtarmalı olacaq.

***Allahverdi Mehdiyev***
***Newtimes.az***

# Ermənistanda etirazçılar metropolitenin fəaliyyətini dayandırıblar

***Ermənistan müxalifətinin fəalları baş nazir Nikol Paşinyanın istefası tələbi ilə İrəvan metropolitendə qatarların hərəkətini dayandırıblar. AZƏRTAC Rusiya KİV-lərinə istinadla xəbər verir ki, bu barədə jurnalistlərə metropoliteninin mətbuat katibi Tatev Xaçatryan deyib. "Hazırda "Qorsaranain" stansiyasında keçirilən aksiya səbəbindən bütün metropolitenin fəaliyyəti dayanıb. Hələlik metronun nə vaxt normal fəaliyyətə başlayacağı məlum deyil", - deyə o bildirib.***

Etiraz aksiyası, həmçinin İrəvanın mərkəzində, paytaxt ətrafında və Ermənistanın bütün vilayətlərində keçirilir. Ararat şəhərində hökumət başçısının tərəfdarları və əleyhdarları arasında toqquşmalar qeydə alınıb. İnsident zamanı bir neçə fəal saxlanılıb. Polis, eyni zamanda müxalif "Daşnaksütyun" partiyasının nümayəndəsi, "Erkir Media" telekanalının xəbər bloku portalının rəhbəri Geqam Manukyanı həbs edib.



"Nikolsuz Ermənistan, Nikol getməlidir, Nikol torpaqlarımızı satıb" şüarları səsləndirən müxalif fəallar paytaxtın əsas yollarında və prospektlərində hərəkəti dayandırıb, şəhərdə böyük tıxaclar əmələ gəlib.

Bir müddət öncə "Daşnaksütyun" partiyasının nümayəndəsi İşxan Saqatelyan "Facebook" sosial şəbəkəsində canlı yayım edərək Nikol Paşinyanın istefasına verilən vaxt (yerli vaxtla saat 12:00) bitdikdən sonra Ermənistanın 17 müxalif partiyasının etiraz aksiyalarına başlayacağını elan edib.

Qeyd edək ki, dekabrın 5-də 17 partiyadan təşkil olunan "Vətənin xilası uğrunda komitə" Nikol Paşinyanın hökumət bağı qarşısında etiraz aksiyası keçirərək onun dekabrın 8-dək istefa verməsi barədə ultimatum irəli sürmüşdü.

# "Koçaryan və Sarkisyanın əli minlərlə günahsız azərbaycanlının qanına batıb"

***Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı Azərbaycan Ordusu 30 ilə yaxın davam edən Qarabağ problemini həll etdi və Azərbaycan öz ərazi bütövlüyünə qovuşdu. Münaqişənin tamamilə Azərbaycanın maraqlarına uyğun həll olunması Ermənistanda dərin siyasi çatlar yaratdı. Demək olar ki, Ermənistanda dövlət institutları faktiki olaraq fəaliyyət göstərmir. Bunu Trend-ə Milli Məclisin deputatı Şahin İsmayılov deyib. Deputat bildirib ki, Paşinyan öz nüfuzunu tamamilə itirib və Ermənistan vətəndaş müharibəsi ərəfəsindədir:***



"Nəzərə alsaq ki, 2-ci Qarabağ müharibəsi zamanı fərarilik edən çoxlu sayda erməni əsgərləri və könüllüləri döyüş meydanından kifayət qədər silah-sursatla qaçıblar, bu da vəziyyəti Ermənistan üçün daha təhlükəli vəziyyətə gətirir. Hakimiyyətdə olduqları müddətdə daim Qarabağ kartından istifadə edən Ermənistanın keçmiş prezidentləri Sarkisyan və Köçəryan da hazırda bu ölkədə aktiv siyasi proseslərə qoşulmaq niyyətindədirlər. Onlar bu dəfə də Qarabağ kartından istifadə etməyə çalışırlar. Forma dəyişsə də məzmun dəyişməyib. Saxta qəhrəmanlar olan bu iki şəxs dərk etməlidirlər ki, artıq Azərbaycan qalib ölkədir, Qarabağ problemi deyilən bir anlayış yoxdur, Ermənistanın inkişafı birbaşa olaraq qonşuları ilə münasibətlərin normallaşmasından asılıdır, yeni növ bir münaqişə yaratmaq cəhdi isə sadəcə olaraq Ermənistanın bir dövlət kimi məhv olmasına gətirib çıxara bilər.

Əlləri minlərlə günahsız azərbaycanlının qanına batmış bu şəxslər həm də öz xalqını aldadırlar, onlara qarşı da kifayət qədər ağır cinayətlər törədiblər. Düşünürəm ki, Paşinyanı hansısa məsələlərdə ittiham edən bu şəxslər həm də öz əməllərinə, hakimiyyətdə olduqları vaxt törətdikləri cinayələrə də aydınlıq gətirməlidirlər.

Əslində Ermənistanın bu vəziyyətə gəlməsində ən böyük günahkarlar sırasında bu iki şəxsin adı ilk sıralardadır. Onlar özləri də bunu çox yaxşı bilirlər. Sadəcə olaraq hakimiyyət hərisliyi yeni qurbanlar verilmək bahasına olsa da onlar üçün hər şeydən önəmlidir. Amma erməni xalqını fikirləşən hər hansı bir erməni siyasətçi yaxşı başa düşməlidir ki, onların qurtuluşu Azərbaycandan asılıdır. Bu reallığı nə qədər tez dərk eləsələr, onlar üçün bir o qədər yaxşı olacaq".

# "Anti-Azərbaycan mövqeyi ilə seçilən ölkələr Azərbaycan kimi etibarlı bir tərəfdaşı itirdiklərini anlamalıdırlar"

***Müharibədən sonra bərpa dövrü başlayır. Belə ki, genişmiqyaslı quruculuq işlərinə, ilkin infrastruktur layihələrinə start verilib. İşlərə Azərbaycan şirkətləri ilə yanaşı xarici investorlar da cəlb ediləcək. Bu istiqamətdə də Azərbaycan üçün dost hesab olunan ölkələrin şirkətləri artıq dəvət edilib. Bunu Trend-ə politoloq Şəbnəm Həsənova deyib.***



Ş.Həsənova bildirib ki, Prezident İlham Əliyev Azərbaycanın dost ölkələrlə olan münasibətlərini və əməkdaşlığını yüksələn inkişaf xətti üzrə davam etdirir:

"Müharibədən sonra Azərbaycana ilk səfər edən Avropa nümayəndə heyəti İtaliya Deputatlar Palatasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyəti oldu. Quruculuq işlərinə İtaliyanın simasında dost ölkələrin şirkətləri də qoşulacaq və bununla bağlı İtaliya tərəfinə artıq təkliflər də verilib. Nəzərə alsaq ki, İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığımızı təsdiqləyən Çoxölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd xüsusi yer tutur, o zaman aydın olur ki, iki ölkə arasında əlaqələr siyasi, iqtisadi, digər sahələrdə sürətlə inkişaf edərək bu gün ən yüksək səviyyəyə çatıb. İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Böyük hissəsi enerji resurslarına aid olan 2019-cu il üzrə dövriyyəmiz 6 milyard dollara çatıb. Növbəti illərdə qeyri-neft sektorunun da inkişafı nəzərdədir".

Ş.Həsənova vurğulayıb ki, müharibə göstərdi ki, Azərbaycanın əsl dostları kimlər və hansı ölkələrdir:

"İtaliya nümayəndə heyətinin Azərbaycana səfəri bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur. Nümayəndə heyətinin həm Gəncəyə, həm Ağdama səfər etməsi və Ermənistanın törətdiyi hərbi cinayətlərini, bu dövlətin ölkəmizə qarşı terror siyasətini həyata keçirdiyini öz gözləri ilə görmələrinə imkan yaratdı.

Azərbaycan dost ölkələrin şirkətlərini işğaldan azad olunmuş bölgələrdə bərpa işlərinə cəlb edir. Yaxın gələcəkdə TAP layihəsinin istismara verilməsi bir tərəfdən İtaliya-Azərbaycan əlaqələrini daha da möhkəmləndirirsə, digər tərəfdən də Azərbaycanın beynəlxalq layihələr çərçivəsində də nə qədər etibarlı tərəfdaş olduğunu sübut edir. Bu baxımdan da bu zaman çərçivəsində anti-Azərbaycan mövqeyi ilə seçilən ölkələr Azərbaycan kimi etibarlı bir tərəfdaşı itirdiklərini anlamalıdırlar".

# Yevgeni Mixaylov: "Qarabağa dair üçtərəfli bəyanat fakt kimi qəbul olundu"

***"Bakı ilə Yerevan arasında Moskvanın vasitəçiliyi ilə imzalanmış, əslində Ermənistanın təslim olaraq işğal etdiyi torpaqları qaytarmağı nəzərdə tutan atəşkəs razılaşmasının dünya birliyi tərəfindən fakt olaraq qəbul edildiyi göz qabağındadır".***



"Report" xəbər verir ki, bunu rusiyalı politoloq, beynəlxalq münasibətlər üzrə ekspert Yevgeni Mixaylov ATƏT Xarici İşlər Nazirləri Şurasının 27-ci iclasının nəticələrini, o cümlədən iclas çərçivəsində ATƏT-in Minsk qrupu həmsədr ölkələrinin nümayəndə heyətləri rəhbərlərinin bəyanatını şərh edib.

"Bu, yeni, təkzibedilməz gerçəkikdir. Ona görə də ATƏT-in Minsk qrupunun həmsədrlərindən elə bir tənqidi fikirlər də eşitmədik. Sözsüz ki, Qarabağ məsələsi ətrafında müxtəlif siyasi oyunlar olacaq, bunlar var, lakin xırda bəyanatlardan o yana getmir. Qarabağ Azərbaycandır və bütün ölkələr də regiondakı yeni siyasi doktrinalarını məhz Azərbaycanın işğal edilmiş torpaqlarını geri qaytarmasını nəzərə almaq şərtilə qurmalıdır", - ekspert vurğulayıb. Rusiyalı politoloqun fikrincə, Qafqazda böyük müharibənin baş verməsi heç kimə sərf etmir: "Rusiya, Türkiyə, Azərbaycan tərəfindən göstərilən səylər sayəsində bunun qarşısı alındı. Artıq Cənubi Qafqazda yeni güc mərkəzi yaranıb. Avropa ilə ABŞ bununla hesablaşmalı olacaq".

# Erməni politoloq: Azərbaycana informasiya müharibəsində məğlub olduq



***Ermənistan Azərbaycanla informasiya müharibəsində məğlub oldu. Bu məğlubiyyət 2020-ci ilin sentyabr və ya oktyabr aylarında - Qarabağdakı münaqişənin qızğın mərhələsində deyil, daha əvvəl - 2018-ci ilin mayından başlayıb.***

Azvision xəbər verir ki, bunu erməni politoloq Armen Qasparyan deyib. Qasparyanın sözlərinə görə, hakimiyyətə gəldikdən sonra Ermənistanın baş naziri Nikol Paşinyan və komandası informasiya təhlükəsizliyi də daxil olmaqla mümkün olan hər şeyi məhv etməyə başlayıb.

O bildirib ki, əməliyyatlar zamanı Ermənistan hakimiyyəti informasiya qarşıdurması kimi vacib bir senzura alətindən belə istifadə etməyib.

Qasparyan hesab edir ki, bütün günahı bir nəfərin üzərinə atmaq cəhdləri təhlükəlidir. Politoloqun fikrincə, bu gün müxalifət sahəsini və informasiya gündəmini dolduran bir çox qüvvə vaxtilə mövcud vəziyyətə gətirib çıxaran qərarları alqışladı. İnsanların qısa bir yaddaşa sahib olduğunu düşünürlərsə, çox səhv edirlər. "Bağışlayın, amma bu cür komponentlərlə müharibəni yalnız uduzmaq olardı. Ümumiyyətlə, mənə elə gəlir ki, Ermənistanda tam olaraq nə baş verdiyini başa düşmürlər. Bu hərbi məğlubiyyət deyil, bu, çoxlarının günahkar olduğu milli aşağılanmadır".

# Erməni cəmiyyətində qaranlıqlar

***KTMT Kollektiv Təhlükəsizlik Şurasının 14 oktyabr 2016-cı il tarixində Yerevanda keçirilən iclası zamanı Belarusiya Prezidenti Aleksandr Lukaşenko ilə Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan arasında olan, bu vaxta qədər ictimailəşdirilməyən bir söhbət sosial şəbəkələrdə yayılıb və işğalçı ölkədə cərəyan edən hadisələrin gedişi təsdiq edir ki, bu erməni cəmiyyətində ciddi rezonans doğurub.***

Sözügedən söhbət zamanı Ermənistanın üçüncü prezidenti torpaqlardan, daha dəqiq desək, 7 rayondan imtina edilməsi müqabilində 6 milyard dollar təklif etdiyini dilə gətirib. Məhz onun bu təklifi erməni cəmiyyətində müzakirə mövzusuna çevrilib və hardasa bu müzakirələrdə müəyyən bir məntiq də yer alır və hətta Sarkisyana ünvanlanan suallar da əbəs yerə deyil.



### Aldadılan, axmaq yerinə qoyulan ermənilər

Erməni cəmiyyətində belə bir sual yaranıb ki, Serj Sarkisyana bu qədər pul haradandır? Yəni, Ermənistanın üçüncü prezidentinin bu pulları haradan əldə etməsi təbii ki, bu ölkə vətəndaşlarını ciddi şəkildə maraqlandırır. İndi ermənilər hesab edirlər ki, əgər bu vəsait onun şəxsi kapitalının bir hissəsidirsə, o zaman müstəntiqlərin onunla bu vəsaitlərin mənşəyi barədə danışması tam məqsədəuyğundur. Eyni zamanda işğalçı ölkə vətəndaşlarını düşündürən odur ki, bu vəsait dövlət büdcəsindən gələn puldursa, kim ona bu qədər asanlıqla sərəncam verməsinə icazə verib?

Sarkisyanın ofisi öncə qeyd etdiyimiz şəkildə iki prezidentin söhbətinin, bu söhbət zamanı Sarkisyanın 6 milyard dollar təklif etməsi məsələsinin həqiqiliyini artıq təsdiqləyib. Lakin bu təsdiq, hələ də ortalıqda dolaşan çoxsaylı sualları aradan qaldırmayıb. Həqiqətən də istər erməni cəmiyyətini, istərsə də bir dövlət olaraq Ermənistanı narahat edən, düşündürən məqamlar çoxdur. Çünki, bu məqamlar erməni vətəndaşlarının mənafelərinə, eləcə də dövlət təhlükəsizliyinə birbaşa və dolayı şəkildə aiddir.

Doğrudur, Ermənistan vətəndaşlarını narahat edən məsələ bu qədər vəsaitin eks-prezidentdə olması, bu vəsaitin kimə məxsus olması, əgər dövlətə məxsus idisə, bu vəsaitlərə görə Sarkisyana kim belə bir ixtiyar vermişdi və sair bu kimi detallardır. Amma bundan daha təhlükəli məqamlar var ki, bu məhz dövlət təhlükəsizliyi məsələləridir. Maraqlıdır, iki ölkə liderləri arasında qeyri-rəsmi söhbətin qeydə alınması, yazılması necə baş verib. Bu vaxta qədər gizli saxlanılan, qəflətən peyda olan danışıq, qeyri-rəsmi dialoq sosial şəbəkələrdə peyda olursa, bu erməni cəmiyyətinin müzakirəsinə buraxılırsa, bu artıq dövlətin milli təhlükəsizliyini ciddi şəkildə narahat etməlidir və edir də. Eks-prezidentin ofisi belə bu məlumatı təsdiqləyir və artıq bu fakt özü də işğalçı ölkənin təhlükəsizlik xidməti üçün həyəcan təbili deməkdir. Nəinki təhlükəsizlik xidməti, hətta üçüncü prezidentin ofisi belə dar formatda keçirilən görüş zamanı prezidentlər arasında qeyri-rəsmi söhbətin necə yazıldığından təəccüblənib.

### Erməni cəmiyyəti işləri qaydasına salmaqda gecikib

Diqqətə çatdıraq ki, bu ölkədə belə hallara mütəmadi olaraq rast gəlinir və belə bir sual ortaya çıxır, görəsən təhlükəsizlik xidməti nə işlə məşğuldur? Paşinyan hökuməti dövründə baş verən oxşar hekayələri xatırlamaq kifayətdir ki, ölkədə vəziyyətin nə yerdə olduğu bəlli olsun. Oxşar hadisə, bənzər məqam 2018-ci ilin sentyabrında, o vaxtkı Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanesyan ilə Xüsusi İstintaq Xidmətinin rəhbəri Sasun Xaçatryan arasında Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın həbsini və cinayət işlərini müzakirə etdikləri 8 dəqiqə müddətində olan telefon danışığının şəbəkəyə sızdığı zaman ortaya çıxmışdı. KTMT Baş katibi Yuri Xaçaturov və keçmiş müdafiə naziri Mikael Arutyunyana qarşı olan cinayət işi məsələsinə görə də belə hallar erməni cəmiyyətinə, eləcə də hamıya tanışdır. Ermənistanın baş naziri Nikol Paşinyan və Ermənistan Milli Təhlükəsizlik Xidmətinin o zamankı direktoru Artur Vanesyanın başqa bir telefon dinləməsi 5 dekabr 2018-ci il tarixində yayılmışdı ki, görünür bu da hələ sonuncu deyildi.

İndi məlum olur ki, bu işğalçı ölkənin liderləri ən azı 2016-cı ildən bəri, hətta Sarkisyan dövründə də dinləniliblər. Xarici xüsusi xidmət orqanları tərəfindən bu qədər asanlıqla dinlənildiyi üçün Ermənistanın xüsusi xidmətləri və ölkənin yüksək vəzifəli şəxsləri hara baxır? Axı, onlar Ermənistan xüsusi xidmət orqanlarının rəhbərlərinin tamamilə gizli telefon kanallarına, hökumət başçısının telefonuna asanlıqla qoşulmaqla yanaşı, iki prezidentin danışıqlarına da qulaq asırlar. Bu, Milli Təhlükəsizlik Xidmətinin mütləq yararsızlığına dəlalət edir. İndi ona görə erməni cəmiyyəti narahatlıq içərisindədir. Daha dəqiq desək, erməni cəmiyyəti çox narahatdır və düşünür ki, peşəkarlığın aşağı səviyyədə qaldığı bu quruluşda işləri qaydasına salmaqda gecikməyibmi? Əlbəttə ki, gecikib, özü də həddindən çox gecikib.

### İşğalçılıq meylləri Ermənistanın hazırki vəziyyətinə səbəb olub

Bir az daha dərindən nəzər salaq görək, Serj Sarkisyan Lukaşenkoya 7 bölgədən imtina edəcəyi təqdirdə 6 milyard dollar təklif etməyə hazır olduğunu söyləməsi nə deməkdir? Burada başqa bir sual yaranır ki, görəsən Sərkisyan bu qədər pulu haradan əldə edir? Heç də 6 milyard dollar kiçik bir məbləğ deyil. Bu onun şəxsi kapitalının bir hissəsidirsə, o zaman müstəntiqlərin onunla vəsaitlərin mənşəyi barədə danışması tam yerinə düşər. Bir tərəfdən də düşünəndə ki, Sarkisyan son qəpiyinə qədər pullarını bu 7 rayon üçün verən insan deyildi, deməli, onun şəxsi varidatı bu 6 milyard dollardan bir neçə dəfə çoxdur. Yaxşı, bu pullar ona haradandır o zaman?

Digər prizmadan yanaşsaq, bu vəsait dövlət büdcəsindən gələn puldursa, kim onun bu qədər vəsaitə asanlıqla sərəncam, qərar verməsinə icazə vermişdi? Bu pullar dövlət büdcəsində idisə, niyə Sarkisyan onu iqtisadiyyatı qurtarmaq, xilas etmək və əhalinin sosial cəhətdən imkansız qruplarına kömək etmək üçün xərcləməyib o vəsaitləri? Niyə bu vəsaitlər məhz dinc məqsədlərə, insanların rifahına yönəldilməyib? Bu işğalçı ölkə nə vaxta qədər qəsbkarlığı, işğalçılığı dövlət siyasəti hesab edəcək? Dərs olmadımı bu adamlara ki, bu qədər işğalçılıq meylləri Ermənistanın hazırki vəziyyətinə səbəb olub?

### Dövlətçiliyinin qorunacağına belə şübhə ilə yanaşır ermənilər

Bütün bu sadalanan çirkin hekayələr Ermənistanda tamamilə əks effekt yaradıb. İndi erməni cəmiyyəti fərqində olmalıdır ki, onlar hər zaman aldadılıb. Təkcə Paşinyan hakimiyyəti dövründə deyil, ondan əvvəl də bu işğalçı ölkə əhalisi hakimiyyəti tərəfindən yetərincə axmaq yerinə qoyulub. Hazırda balalarını itirən valideyinlər əbəs yerə İrəvan küçələrində hay-küy salmırlar. Onların ittihamları da təsadüfi deyil. Çirkin oyunlar, absurd fikirlər, axmaq və əsassız iddialar erməni xalqı dedikləri toplumu səfil vəziyyətə salıb. Bölgədə qlobal layihələrin gerçəkləşdirildiyi bir vaxtda, iqtisadi inkişaf, dinamika müşahidə edildiyi bir zamanda rəhbərlərinin, hakimiyyətlərinin axmaq ideologiyası səbəbindən ermənilər, Ermənistan dövləti küncə qısılmış, marginallaşmış duruma düşüb.

Nəinki inkişafdan, hər şeydən, hər məqamdan məhrum olub. İndi erməni cəmiyyəti dövlətçiliyinin qorunmasına belə şübhə ilə yanaşır və heç inanmır da. Bu işğalçı ölkə müxalifəti yalan-doğru, Ermənistan deyillən dövlətin xilası uğrunda çarpışır. Nikol Paşinyanın timsalında hakimiyyəti isə kreslo, tutduğu post maraqlandırır. Xalqın, çoxsaylı insanların istefa tələbinə məhəl qoyan yoxdur və erməni baş nazir öz vəzifəsindən bərk-bərk yapışıb. Amma bunun belə davam etməyəcəyi heç ağlasığan deyil. Bu barədə Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan da öz xəbərdarlığını edib və bildirib ki, hakimiyyətin və müxalifətin bir-birinə güzəştə getməməsi fonunda erməniləri vətəndaş müharibəsi gözləyir.

### Qarandıq məqamlar kütləni çaşbaş salıb

Hazırda erməni cəmiyyətində bir sıra qarandıq məqamlar ortaya çıxmaqdadır. Özü də təkcə Paşinyan hakimiyyətinin deyil, ondan əvvəlkilərin də oyunları, bu oyunlardan doğan bəzi məqamlar işğalçı ölkə vətəndaşlarını əməlli-başlı düşündürür. Bütövlükdə kütləni də çaşbaş salan da elə bu qarandıq məqamlardır. İndi Ermənistan vətəndaşları kor kimidir, desək yanılmarıq. Təsəvvür edək ki, 44 günlük müharibə müddətində zəfər, qələbə xəbərləri ilə qulaqları doldurulan xalq qəflətən məğlubiyyət xəbəri ilə qarşılaşıb və bunun fonunda itgilər də ağlasığmaz, sayagəlməz dərəcədədir.

Bu da azmış kimi, itgin düşən əsgərlərin valideyinləri üçün də balalarının taleyi qaranlıq qalır. Kimin harada olması, taleyi Ermənistan hakimiyyətini zərrə qədər maraqlandırmır. İtgin düşən əsgərlərin valideyinləri Rusiya prezidentindən yardım diləyir öz övladlarının ya dirisinin, ya da ölüsünün tapılması üçün. Bu vəziyyət özü həddindən artıq faciəvidir və görəsən, dövləti, hakimiyyəti olan bir xalq niyə qonşu dövlətin prezidentindən yardım, kömək istəməlidir? Ona görə ki, erməni xalqı deyilən bu toplum hər zaman özünü aldadılmış hiss edib. Çünki, daim üzə çıxan qaranlıq məqamlar bu xalqı elə qaranlıqlara qərq edib. Həm də o səbəbə görə ki, ermənilər özləri barədə heç də nikbin düşüncədə deyillər və qaranlıqların bununla bitəcəyinə də zərrə qədər ümidləri belə yoxdur.

***İnam Hacıyev***



## Baydenin yeni komandasında diqqəti cəlb edən iki şəxs - Türkiyə və Azərbaycanla əlaqələr?

***ABŞ-da yeni seçilmiş prezident Co Bayden ve vitse-prezident Kemale Harris Ağ Evdə vəzifəyə başlamazdan əvvəl öz komandalarını yığmağa başlayıblar. SİA xarici KİV-lərə istinadən xəbər verir ki, Bayden bu yaxınlarda iqtisadiyyat komandasını təqdim etdikdən dərhal sonra müavini Harris də onunla yaxından işləyəcək insanların adları açıqlayıb. Bunlardan ikisi daha diqqətçəkəndir. Hətta, erməni mətbuatının belə diqqətindən Türkiyə ilə əlaqəsi olan bu iki nəfər yayınmayıb. Ermənilərin bu seçimlərdən nə qədər narahat olduqları ortaya çıxıb.***

Harrisin komandasında olacaq şəxslərdən biri Türkiyənin Kırklareli Vize bölgəsindən olan Özkan Sedat Kösoğlunun həyat yoldaşı Rohini Kösoğludur. Harris Kösoğlunu daxili siyasət üzrə məsləhətçi təyin edib. Əlbəttə, Türkiyə ilə birbaşa əlaqələri olan birinin Ağ Evdə çalışması çox vacib məqamdır.

Digər şəxs isə Türkiyəni çox yaxından tanıyan, Georgetown Universiteti və ABŞ Dövlət Departamentinin alimi, diplomat Nansi Elien MakEldovney-dir. Kemale Harris keçən ay Dövlət Departamenti ilə işləmək üçün Baydenin "keçid komandası"na qoşulan MakEldovney-i ofisinin Milli Təhlükəsizlik müşaviri təyin etdiyini açıqlayıb. MakEldovney 2005-2008-ci illərdə ABŞ-ın Türkiyədəki səfirliyində müvəqqəti işlər vəkili vəzifəsində çalışıb və daha əvvəl də 2001-2004-cü illərdə Azərbaycanda da eyni vəzifəni icra edib.

Diqqət çəkən digər bir məqam da ondan ibarətdir ki, MakEldovney 2007-ci ildə preizdent Corc Buşun Konqresdə qondarma erməni soyqırımı qərarının çıxmamasının vacibliyini vurğuladığı zamanda və 2009-cu ildə Türkiyə-Ermənistan protokolunun hazırlanmasında təsirli şəxslərdən biridir. Başqa sözlə desək, daha çox türk tərəfini dəstəkləyən şəxs olaraq tanınır.

***Aysel Məmmədova***

# Ailədaxili zorakılıq: kimlər necə və nəyə məruz qalır?

**Ekspert: "Zorakılıq tək fiziki deyil, mənəvi zorakılıq da var və bu, daha ağır nəticələr verir"**

Ailədə zorakılıq bütün cəmiyyətlərin ortaq problemdir. Bu sahədə aparılan araşdırmalar dünyada hər 4 qadından 1-nin və hər 6 kişidən 1-nin ailədə zorakılığa məruz qaldıqlarını göstərib. Zorakılıq özünü 2 yöndə göstərə bilər, fiziki və mənəvi tərəfdən. Psixoloqlar deyir ki, mənəvi zorakılıq daha çox zərərlidir və cəmiyyətin ən yaralı yeridir. Etiraf etmək çətin olsa da bu gün əri tərəfindən döyülən qadınlarımız da var, xanımın təzyiqinə, mənəvi basqısına, bəzən də fiziki zorakılığa məruz qalan kişilər də.

Sosioloqlar ailədaxili zorakılığa məruz qalanları aşağıdakı kimi sıralayırlar:

1. Həyat yoldaşı (qadın və ya kişi)
2. Uşaqlar
3. Ailə böyükləri (nənə və ya baba)
4. Xüsusi qayğıya ehtiyacı olanlar (fiziki qüsurlu insanlar)

## Kim daha çox zorakılıq görür?

Nədənsə, ailədə zorakılıqdan söz düşəndə hamının gözünün özünə əri tərəfindən döyülmüş, üz-gözü şişmiş, paltarları cırılmış qadın surəti gəlir. Bizim cəmiyyətdə kişilərin ailədə zorakılığa məruz qalmasına inanmırlar, daha dəqiq ifadə etsək əksəriyyət bunu mümkünsüz hesab edir.

Müsəlman cəmiyyətlərində daha çox qadınlar və uşaqlar zorakılığa məruz qalması barədə danılmaz faktlar var. Elə bir ay əvvəl Səudiyyə Ərəbistanında ailəli olan gimnastımız Zeynəb Cavadlının sosial şəbəkə müraciəti də bu faktlardan biri idi. Ərəb şeyxi ilə evli olan gimnastımız ailədaxili zorakılığa məruz qaldığını və Səudiyyə qanunlarına görə heç bir haqqının olmadığını yayımlamışdı. Onun olduğu cəmiyyətdə qadınlar demək olar ki, söz haqqına malik deyil. Yerli qanunlara görə, kişi birmənalı olaraq özünü ailənin lideri görür və liderliyini qəyiyyən paylaşmaq istəmir. Əgər qadın hər hansı bir səbəbdən etiraz edərsə, payına yalnız döyülmək, uşaqlarından məhrum edilmək düşür.

Bizim ölkəmizdə də zaman-zaman mətbuata, hüquq-mühafizə orqanlarına məlum olan zorakılıq hadisələri olur, amma etiraf etmək lazımdır ki, ölkəmizdə hər 100 zorakılıq halından yalnız bir neçəsi aşkara çıxır. Kişilərin zorakılıq gördüyü cəmiyyətlərdə isə çox vaxt fiziki qüsuru olan kişilər və qocalar bundan əziyyət çəkir. Bu o demək deyil ki, onlara fiziki güc tətbiq edilir, yox, sadəcə sözlə də zorakılıq olur, bu iş qabiliyyətini itirmiş və ya yaşlanmış kişilərin ən çox raslaşdığı durumdur.

## Sosioloq: Mənəvi zorakılıq daha ağır nəticə verir

Psixoloqların fikrincə, ailədaxili zorakılığın səbəbləri ailə üzvləri arasında anlaşmazlıq, ailə üzvlərinin məsuliyyətsizliyi, fiziki və ruhi problemlər, şəxsiyyət pozğunluqları, maddi problemlər, aldatma-xəyanət etmə, spirt və narkotik asılılıq, depressiya və fərqli namus anlayışlarıdır.

Sosioloq Arzu Qarayeva hesab edir ki, ailədə zorakılığın artmasının səbəblərindən biri də savadsızlıqdır: "Düzdür, bizdə savadsız qadınlar azdır, ali məktəb oxumayanların heç olmasa orta təhsili, kifayət qədər biliyi var. Təcrübədən keçmiş faktdır ki, dünyadan bir az xəbəri olan, haqqını-hüququnu bilən qadınlar özlərini əzdirmirlər. Heç olmasa, çətin halda hara müraciət etmək lazım olduğunu bilirlər.

Və ya əksinə, ailədə zorakılıq görən kişilər də var, kimisi valideynindən, kimisi də həyat yoldaşından. Zorakılıq tək fiziki basqı



demək deyil, mənəvi zorakılıq da var və bu fiziki zorakılıqdan daha ağır nəticələr verir".

## Zorakılığın 3 əsas səbəbi var

1-ci səbəb stress, əsəb yaradan işlərdən, genefondu dağıdan transgen qidalardan, eləcə də hər saniyə daha da korlanan ekologiyadan qaynaqlanır. Ekspertlərin fikrincə, insanlar nə qədər ki, süni qida, genetik modifikasiya olunmuş məhsullar yeyəcəklər, ağır və stressli iş rejimi ilə çalışacaqlar elə belə də davam edəcək. Nəticə isə özünü ağır formada göstərir. İşdə, küçədə əsəbləri tarıma çəkilən kişi və ya qadın bütün hirsini evdəkilərin üstünə tökür, etiraz edən, səsini çıxaran olanda da zorakılıq tətbiq edir.

2-ci səbəb, qeyri-düzgün yaşam, uyğunlaşmayan baxışlar, uyuşmazlıqlardır. Əgər kişi evləndiyi qadını sadəcə görüntü olaraq bəyənirsə bu sonralar böyük problemlərə səbəb olur. Uyğun gəlməyən xasiyyətlər ailəiçi münaqişələrin təməlində durur.

3-cü səbəb, ictimai təsirlərdir. Çoxları eşitmiş olar, bizim cəmiyyətdə kobud bir məsəl var, "qızını döyməyən, dizini döyər". Bəzi valideynlər də buna hərfi mənada əməl edir, halbuki, burada "döymək" məcazi mənadadır, yəni, uşağı döymək yox, ona tərbiyə vermək mənasındadır. Cəmiyyətin qınağına tuş gəlməkdən qorxan kişi qadının, övladının "aşının suyunu verir" ki, başqaları ona "əsl kişi" desin.

Psixoloqlar ailədaxili zorakılığa məruz qalan hər bir uşaqğın gələcəkdə bunu öz övladına qarşı tətbiq edəcəyini deyir.

## Zorakılığın növləri

Ailə içi zorakılıq bir çox formada təzahür edə bilər, yumruq atma, təpikləmə, söyüş, hər hansı soyuq alətlə vurma, odlu silahlarla qorxutma və ya yaralama, zorla evləndirilmə, cinsi əlaqəyə məcbur etmə, evdə dustaq etmə və s.

Bunlardan əlavə, ailə üzvlərinə qarşı səs ucaltmaq, başqalarının yanında hörmətdən salmaq, qürurunu qırmaq da zorakılıq sayılır. İqtisadi imkanların məhdudlaşdırılması, yəni maddi sıxıntıya salmaq da ailədaxili zorakılığın bir növü hesab edilir.

## Qadın ailədaxili zorakılığın hədəfidir?

Qadınlar, ailədaxili zorakılığın ən çox zərər çəkmiş hədəfidir, onlar döyülürlər, söyülürlər, təhqir və təcavüz edilirlər, yaralanırlar və hətta öldürülürlər də. Qadının ailədəki zorakılığı dözməsinin bir çox səbəbi var, özünü gücsüz hesab edir, maddi cəhətdən asılıdır, cəmiyyətin qınağından qorxur.

Ailədaxili zorakılıq görən qadınlarda qorxu, yuxusuzluq, kabus görmə, özünü günahlandırma, özünə inam hissinin itkisi, kompleks hiss etmə, sinir böhranları, tənhalıq, əsəbilik simptomlar üzə çıxır. Bu qadınların bir çoxu həyat yoldaşlarından "ümidi kəsmirlər", bir gün "düzələcək"ləri ümidiylə yaşayırlar.

## Kim fiziki, kim mənəvi zorakılığa məruz qalır?

Bizim cəmiyyətdə kişinin zorakılığa məruz qalması nadir hal olsa da, rast gəlinəndir. "Sağlam Cəmiyyət" İctimai Birliyinin (SCİB) keçən il apardığı bir araşdırmaya görə, ölkəmizdə kişilərin 2,1%-i tez-tez, 1,2%-i hərdənbir xanımları tərəfindən fiziki zorakılığa məruz qalır.

Ümumiyyətlə, kişilər daha çox mənəvi zorakılığa məruz qalır. SCİB-in keçirdiyi sorğunun nəticələrinə görə kişilərin 69%-i, qadınların 73,2%-i həyat yoldaşlarına təhqir, lağ etmə, kobud davranma kimi mənəvi zorakılıq göstərir.

Sorğu həmçinin, ailədaxili münaqişələrin çoxunun (75 faiz) elementar qarşılıqlı hörmət və anlayışın olmaması səbəbindən yarandığını göstərir. 25 faizi isə ciddi səbəblərdən- xəyanət, sərxoşluq, ailəyə laqeydlik kimi hallardan meydana çıxır.

## Ailədaxili zorakılıqda uşaqların yeri

Ailədaxili zorakılıqdan ən çox zərər çəkənlər uşaqlardır. Ana-ata arasındakı mənəvi və fiziki basqının altında çox vaxt uşaqlar qalırlar. Valideynlər arasındakı anlaşmazlıqlardan, davalardan, zorakılıqdan uşaqların da payına düşür. Ailədaxili zorakılıq zamanı uşağa yönəlmiş, istər fiziki, istərsə də mənəvi basqı sərgiləyən hər cür davranış uşaq istismarı deməkdir.

Sosial işçi Zümrüd Həsənli deyir ki, iş təcrübəsində uşaqların döyülməsi, söyülməsi, kəsici-deşici alətlərlə zərər görməsi, dağlanması (bədən üzərində siqaret söndürmə) və bunların nəticəsində uşağın şikəst qalması uşaq istismarını göstərən bir çox hallarla qarşılaşıb.

Onun sözlərinə görə ailədaxili zorakılıq tətbiq olunan uşaqlarda fiziki problemlərdən çox mənəvi-ruhi problemlər yaranır. Bu cür uşaqlar qorxaq, utancaq, tündxasiyyət, təcavüzkar, qorxulu yuxular görən olurlar. Onlarda güvənsizlik, şəxsiyyət pozğunluğu, cəmiyyətdən təcrid olunma, evdən qaçmaq, zorakılığa meylli olmaq hissləri daha qabarıq olur. Onlar atalarını bir model olaraq görürlər və onu təlqin edirlər.

## Ailədaxili zorakılıqda qocaların yeri

Ailədaxili zorakılıqda qocaların yeri narahatlıq yaradacaq qədər genişdir. Ölkəmizdəki qocalar evlərində bu cür halların, əslində, nə qədər çox olduğunu müşahidə etmək olar. Bəzən övladları valideynlərini qocalar evinə göndərmək istəmir, çünki ya cəmiyyətin qınağından qorxur, ya da qoca valideyninin təqaüdünü itirməkdən. Buna görə də valideynə özü baxır. Amma necə baxır, orasını çoxumuz təxmin edə bilirik.

Yaşlı və qocalara zorakılıq bir çox formada təzahür edir, bu fiziki zərər vermə də ola bilər, laqeydlik, maddi sıxıntı vermək, mal-mülkünə sahiblənmək, təhqir etmək, qürurunu sındırmaq kimi mənəvi zorakılıq da ola bilər.

Sosioloqlar isə hesab edir ki, ailədaxili zorakılıqdan əziyyət çəkənlərin sığına biləcəkləri yer olmalıdır. Hər hansı mərkəzlər, sığınma evləri. Ölkəmizdə qadınlar və uşaqlar üçün sığınacaqlar olsa da zorakılığa məruz qalan kişilər üçün sığınacaqlar yoxdur.

*Lalə Mehralı*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

9 dekabr


QARABAĞ AZƏRBAYCANDIR!

## Mixael Şumaxerin oğlu Formula 2-nin çempionu olub



Formula 1-dən sonra daha iki avtoidman yarışında da mövsümün qalibinin adı məlum olub. Qaliblərdən biri növbəti mövsüm karyerasını elə Formula 1-də davam etdirəcək.

AZƏRTAC xəbər verir ki, Mixael Şumaxerin oğlu Mik Şumaxer Formula 2-nin çempionu olub. Bəhreyndəki Sahir avtodromunda keçən mövsümün sonuncu yarışında almaniyalı pilot əsas rəqibi Kallum Aylottu qabaqlayaraq karyerasında ilk dəfə bu mükafata sahib çıxıb. Həlledici yarışda şinlərlə bağlı problem yaşadığına görə geri düşməsinə baxmayaraq, Mik yarışı 18-ci pillədə başa vurub. Bu isə onun çempionluq qazanmasına mane olmayıb. K.Aylott da şinlərlə bağlı problemlə üzləşərək Qran-Prini 10-cu yerdə başa vurub.

Növbəti mövsüm Mixael Şumaxerin oğlu Formula 1-də "Haas" komandasının heyətində debüt edəcək. Ralli üzrə dünya çempionatında da qalib müəyyənləşib. Montsadakı yarışda fransalı pilot Sebastyan Ojye finiş xəttini birinci keçərək karyerasında 7-ci dəfə bu titulun sahibi olub. İkinci yerə Ott Tyanak, üçüncü pilləyə isə Dani Sordo sahib çıxıblar.

## Ən yaxşı futbolçu kimdir: Ronaldo, Messi, yoxsa Levandovski?

***"Globe Soccer Award"ın versiyasına görə, ilin ən yaxşı məşqçisi, ən yaxşı futbolçusu və ən yaxşı klubu adına son namizədlər açıqlanıb. Qol.az mükafatın saytına istinadən xəbər verir ki, ilin ən yaxşı futbolçusu adına finalçılar sırasında Kriştiano Ronaldo ("Yuventus"), Lionel Messi ("Barselona") və Robert Levandovski ("Bavariya") yer alıb.***

İlin ən yaxşı məşqçisi adı uğrunda Can Pyero Qasperini ("Atalanta"), Hans-Diter Flik ("Bavariya") və Yurgen Klopp ("Liverpul") mübarizə aparacaqlar. İlin klubu adına namizədlər isə "Bavariya", "Liverpul" və "Real"dır.




## Emin Mahmudov "Neftçi"dən gedir?

Bakının "Neftçi" futbol klubunun kapitanı Emin Mahmudov komandadan gedə bilər. Belə ki, "flaqman"ın yeni baş məşqçisi Samir Abasov futbolçunun oyunundan razı deyil. Təcrübəli yarımmüdafiəçinin oyun üslubuna uyğun gəlmədiyini düşünən S.Abasov kapitanın "Neftçi"dən getməsinə mane olmaq fikrində deyil. Elə E.Mahmudovun özü də əsas heyətdə yerini itirdiyi halda böyük ehtimalla mövsümün sonunda komandanı tərk edəcək.




## Bəzi xəstəliklər nəticəsində qoxubilmə hissi azala və ya itə bilər



Rəngarəng qoxular zövq bəxş etdiyi kimi müxtəlif təhlükələrdən də qoruyur. Burun boşluğunun yuxarı mərtəbəsində yerləşən reseptorlar 200 minə qədər fərqli qoxunu ayırd etmək imkanı verir. Dad və iybilmə hissinin itirilməsi ilə hər 100 nəfərdən 5-i üzləşir.

Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının həkim-otolarinqoloqu Gülyaz Kazımova AZƏRTAC-a deyib: "Müəyyən xəstəliklər nəticəsində iybilmə hissi azala və ya tam itə bilər. İnfeksion xəstəliklər, virus xəstəlikləri və allergik rinitlər nəticəsində burunda şişkinliklər əmələ gəlir. Həmin şişkinliklər nəticəsində hava axınının buruna daxil olması çətinləşdiyinə görə qoxu hissinə gedib çatması da çətin olur. Bunun nəticəsində qoxu yaranmır və siqnal itir. Müalicə olunmadıqda həmin hisslər bərpa olunmaya da bilər". Onun dediyinə görə, qoxubilmə hissi, yəni anosmiya xalq təbabəti üsulları ilə müalicə oluna bilər, lakin əvvəlcə mütləq onun səbəbini aydınlaşdırmaq lazımdır: "Bəzi ağır nevroloji xəstəliklər nəticəsində iybilmənin itməsi mümkündür. Parkinson, Alsheymer, sayrışan nevroz, dağınıq skleroz və şəkərli diabet xəstəlikləri zamanı həmin halla üzləşmək olar. Yaşlı insanlarda qoxu hissinin itirilməsi təbii bir haldır".

İnsan təqribən 10 minə yaxın qoxunu seçmək qabiliyyətinə malikdir. Alimlər burunla ətraf mühitdən cəmi 2 faiz məlumat almağın mümkün olduğunu bildirirlər.

## Bakıda mənzildən kişi meyiti tapılıb

Bakıda mənzillərin birində kişi meyiti tapılıb. Fövqəladə Hallar Nazirliyindən Xezerxeber.az-a verilən məlumata görə, nazirliyin "112" qaynar telefon xəttinə daxil olan məlumata əsasən, Bakı şəhərinin Nizami rayonunda 1 nəfər mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalıb. Hadisə yerinə cəlb olunan Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri mənzilin giriş qapısını açıb və orada aşkarlanan 1953-cü il təvəllüdlü Bakiyev Viktor Vasilyeviçin meyitini aidiyyəti üzrə təhvil veriblər.



## Gözəllik salonları işləməyəcək

Xəbər verdiyimiz kimi, dekabrın 14-dən etibarən ölkə üzrə sərt karantin rejimi tətbiq ediləcək. Sərt karantin dövründə gözəllik salonlarının da fəaliyyətinə icazə verilmir.

Xatırladaq ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən ölkə üzrə xüsusi karantin rejiminin müddəti 2021-ci il 31 yanvar 06:00-dək uzadılıb. 14 dekabr saat 00:00-dan 2021-ci il 18 yanvar saat 00:00-dək bütün ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq edilir.



## ELAN

Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə komitəsinin Abşeron rayon şöbəsi tərəfindən Əliyeva(Nağıyeva) Aytən Nizami qızının (№30801850) adına 600 kv.m torpaq sahəsinə fərdi yaşayış tikintisi üçün verilmiş şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə komitəsinin Abşeron rayon şöbəsi tərəfindən Qafarov Anar Nəcəf oğlunun (№30801849) adına 600 kv.m torpaq sahəsinə fərdi yaşayış tikintisi üçün verilmiş şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə komitəsinin Abşeron rayon şöbəsi tərəfindən Qafarov Natiq Nəriman oğlunun (№30801847) adına 600 kv.m torpaq sahəsinə fərdi yaşayış tikintisi üçün verilmiş şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə komitəsinin Abşeron rayon şöbəsi tərəfindən Qafarov Nəcəf Yusif oğlunun (№30801848) adına 600 kv.m torpaq sahəsinə fərdi yaşayış tikintisi üçün verilmiş şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə komitəsinin Abşeron rayon şöbəsi tərəfindən Qafarova(Əliyeva) Vəfa Valeh qızının (№30801851) adına 600 kv.m torpaq sahəsinə fərdi yaşayış tikintisi üçün verilmiş şəhadətnamə itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**